www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 oktyabr 2018-ci il Çərşənbə axşamı № 224 (7113) Qiyməti 60 qəpik

**Xəbər**

**Cinayətlərin ilginc statistikası - korrupsiya, dələduzluq, namus qətlləri...**

yazısı səh.6-da

**Gündəm**

## ABŞ diplomatından Qarabağa gələcək “sülhməramlılar” anonsu


Ceyms Uorlik

Keçmiş amerikalı həmsədr işğal zonasına neytral ölkələrin sülhməramlılarının yerləşdiriləcəyindən danışdı

yazısı səh.5-də

## Qarabağda son sözü ordumuz, yoxsa diplomatiya deyəcək?

yazısı səh.11-də

## Tramp yarım trilyon itirə bilər- Səudiyyə ilə müqavilə təhlükədə...

yazısı səh.15-də

## Media təmsilçilərinin Gürcüstan səfəri uğurlu nəticələrlə yekunlaşıb

yazısı səh.9-da

## Həbsdəki MTN generallarını bağışlamaq olarmı...

yazısı səh.7-də

## Rüstəm Behrudi Mahmud Kaşqari mükafatına layiq görüldü

yazısı səh.3-də

## “Sivil müxalifətin güclənməsi hakimiyyətin də marağında olmalıdır”

yazısı səh.7-də

## Azərbaycana ən çox kredit verən təşkilatlar

yazısı səh.12-də

## Dostları toya hazırlaşan gənci şantaj etdilər, həbs olundular

yazısı səh.14-də

## 19 nəfəri aldadan bağça müdiri və müavini hakim qarşısında

yazısı səh.14-də

# TRAMPIN EMİSSARI SABAH BAKIYA MOSKVADAN GƏLƏCƏK - MÜHÜM GÖZLƏNTİ

Boltonun Bakı, Moskva və İrəvanda verəcəyi əsas mesaj; Qarabağ da diqqətdə; **səfər öncəsi İrəvan ABŞ-ı qəzəbləndirən demarş etdi:** Amerikanın Ermənistana yetərli maraq göstərmədiyindən gileylənən Paşinyan... İrana reverans elədi




yazısı səh.8-də

# Bakıda ilk eşşək ferması yaradıldı - yarım litr uzunqulaq südünün qiyməti...

Məsələyə münasibət birmənalı deyil; Eyyub Hüseynovun fikrincə, bu, elmi və dini baxımdan doğru sayıla bilməz; hakim Seyfəddin Əsəd deyir ki, eşşək südünün faydası misilsizdir; rəsmi qurumlar isə məlumatsızdır

yazısı səh.3-də



*Fazil Mustafa:*

**“Məmurlara parlament nəzarəti mexanizmi hərəkətə gətirilməlidir”**

yazısı səh.6-da



**Bakıda Mikayıl Müşfiqin qalıqları aşkarlandı-Mədəniyyət Nazirliyi hərəkətə keçdi**

yazısı səh.3-də



*Yeganə Hacıyeva:*

**“”Amnesty İnternational”ın Boltona “Bakıya təzyiq edin” çağırışı etik normaların pozulmasıdır...”**

yazısı səh.10-da





# Prezident İlham Əliyev İmişlidə bir neçə obyektin açılışını etdi

## Dövlət başçısı rayona 4 milyon manat vəsait ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli rayonuna səfər edib. AzərTAc xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin İmişli şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev prezident İlham Əliyevə rayonda görülən abadlıq-quruculuq işləri barədə məlumat verib.

Prezident İmişli rayonuna səfəri çərçivəsində "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.

Komplekslə tanışlıq zamanı Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlət başçısına görülən işlər barədə məlumat veriblər.

Prezident İlham Əliyev İmişli "ASAN Xidmət" mərkəzini işə salıb.

"ASAN Həyat" kompleksində dövlət başçısına dünyaca məşhur Robot Sophia da təqdim olunub.

Prezident həmçinin İmişli rayonunda Araz çayının yeni qol-kanalının açılış mərasimində iştirak edib. Dövlət başçısı tədbirdə çıxış edib.

Mərasimdən sonra iqtisadiyyat naziri Şahin Mustafayev və Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə layihə çərçivəsində görülən işlər və qarşıda duran planlar barədə məlumat veriblər.

Prezidenti habelə Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin açılışında da iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Daha sonra prezident İlham Əliyev oktyabrın 22-də İmişlidə Bayraq Muzeyinin açılışında iştirak edib. Prezident muzeydə yaradılan şəraitlə tanış olub.

İmişli rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçası da açılıb. Prezident İlham Əliyev açılışda iştirak edib, burada yaradılan şəraitlə tanış olub.

Oktyabrın 22-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi də istifadəyə verilib. Dövlət başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış olub.

Azərbaycan prezidenti İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun açılışını da edib.

Prezident İlham Əliyevin oktyabrın 22-də imzaladığı sərəncamla İmişli rayonunun Qızılkənd kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə ilkin olaraq 1 milyon manat ayrılıb.

Prezidentin digər sərəncamına əsasən İmişli şəhərində istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan İmişli Rayon İcra Hakimiyyətinə 3 milyon manat ayrılıb.

## İspaniya milyonçularının sayı çox sürətlə artan ilk on ölkə sırasında

**Pireney yarımadasında yerləşən İspaniya "pul dağarcıqları"nın sayının artım dinamikasına görə dünyada səkkizinci yeri tutub. AzərTAc xəbər verir ki, KİV-lər bu barədə məlumatı İsveçrənin "Credit Suisse" bankına istinadla yayıblar.**

Krallıqda 851 min milyonçu yaşayır. Onların 60 min nəfəri bu elit "maliyyə klubu"na cari ildə daxil olmuş yeni milyonçulardır.

"Credit Suisse" analitiklərinin apardığı tədqiqat göstərir ki, ayrı-ayrı şəxslərin əlində toplanmış sərvətin məcmusu 2017-ci il iyulun 1-dən 2018-ci il iyunun 30-dək olan dövr ərzində 14 trilyon dollar, yəni 4,86 faiz artıb. Ümumi rifahın artım sürəti dünya əhalisinin artım sürətini qabaqlayır.

"Credit Suisse"nin proqnozlarına görə, İspaniya milyonçularının sayı çox sürətlə artan ilk on ölkə sırasındakı yerini yaxın on ildə qoruyub saxlayacaq. İspaniya milyonçularının sayı artaraq 2023-cü il üçün 1 milyon 200 min nəfərə çatacaq. Hətta Amerika Birləşmiş Ştatlarında da milyonçular təbəqəsi ləng - 5 il ərzində cəmi 18 faiz artacaq. Yeri gəlmişkən, Böyük Britaniya (30 faiz), İtaliya (33 faiz) və Fransa (40 faiz) kimi dövlətlər də İspaniyadan geri qalacaqlar.

## Xırdalanda 39 yaşlı kişi parkda öldürüldü

**Xırdalan şəhərində 39 yaşlı kişi qətlə yetirilib. "Report"un məlumatına görə, Abşeron rayonunun Xırdalan şəhər sakini, 27-ci məhəllə ev 2, mənzil 9-da yaşayan 1979-cu il təvəllüdlü Ramiz Rasim oğlu Hüseynov parkda naməlum şəxs tərəfindən bıçaqlanıb. O, çoxlu qan itirdiyindən hadisə yerindəcə ölüb.**

Qətlin kim tərəfindən və hansı səbəbdən törədildiyi hələlik məlum deyil.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda araşdırma aparılır.

## Azərbaycanlılar Ukraynada Türkiyə vətəndaşını oğurladılar

**Ukraynanın Lvov vilayətində iki nəfər Azərbaycan vətəndaşı saxlanılıb. Onlar Türkiyə vətəndaşını oğurlamaqda və onun əvəzində 100 min dollar pul tələb etməkdə ittiham olunurlar. Regnum.ru xəbər verir ki, bununla bağlı yerli polis idarəsi məlumat yayıb.**

Naməlum şəxslər silahla təhdid edərək, kişini avtomobilə mindirib və naməlum istiqamətə aparıblar. Daha sonra cinayətkarlar həmin şəxsin qohumlarından pul tələb ediblər.

"Oğurlanmış şəxs azad edilib, həyati təhlükəsi və sağlamlıqla bağlı problemləri yoxdur. 40 yaşlı türkiyəlini oğurlayan şəxslərin 26 və 27 yaşlı azərbaycanlılar olduğu müəyyən edilib. Onlar həbs olunub", - Lvov polis idarəsinin rəhbəri Valeri Sereda məlumat verib.



## "Pul sarıdan anam kömək edir" - Saakaşvili

**Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili deyib ki, maddi cəhətdən ona anası Giuli Alasaniya yardım edir.**

Virtualaz.org xəbər verir ki, "1+1" telekanalına müsahibəsində Saakaşvili hazırda Niderlandda "kommunal" mənzildə yaşadığını bildirib. Onun sözlərinə görə, təmizlik işləri xərcləri ilə birlikdə mənzil ayda 400 avroya başa gəlir.

"Anam kifayət qədər qazanır və həyat yoldaşıma, Gürcüstanda yaşayan oğluma kömək edir, hərdən bir az mənə də yardımı toxunur", - eks-prezident qeyd edib.


Stiven Mnuçin

## "İrandan neft idxal edən ölkələrə güzəştlər asan olmayacaq" - ABŞ-ın maliyyə naziri

**İrandan neft idxal edən ölkələrə güzəştlər asan olmayacaq. AzərTAc xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə ABŞ-ın maliyyə naziri Stiven Mnuçin deyib. O bildirib ki, İrandan neft idxal edən ölkələrin ABŞ-ın bu ölkəyə qarşı sanksiyalarından azad olmaları Obama administrasiyası dövründəkindən daha çətin olacaq.**

İrana qarşı tətbiq olunacaq sanksiyalardan ötəri neftin qiymətinin artacağı ilə əlaqədar narahatlıqların əsassız olduğunu deyən S.Mnuçin qeyd edib: "Bazar İranın neft ixracındakı azalmanı hazırkı qiymətə əks etdirir. Neftin qiyməti artmaqdadır. Fikrimcə, neft bazarı İranın tədarükündəki azalmanı nəzərə alır".

Nazir noyabrda İranın neft ixracının tamamilə dayanacağını gözləmədiklərini, lakin gec-tez ixracın sıfıra enəcəyini vurğulayıb.

Qeyd edək ki, ABŞ noyabrın 4-dən etibarən İranın milli neft-qaz şirkətlərinə beynəlxalq məhdudiyyətlər qoyacaq, neft və qaz satışına sanksiyalar tətbiq edəcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**



## Baş prokuror Ağdaşda sakinləri qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq baş prokuror Zakir Qaralov cari il oktyabrın 26-da saat 10:00-da Ağdaş Rayon Prokurorluğunun inzibati binasında Mingəçevir şəhər, Ağdaş, Yevlax, Bərdə, Zərdab və Ucar rayon sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Ağdaş rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

# Rüstəm Behrudi Mahmud Kaşqari mükafatına layiq görülüb

**Beynəlxalq Mahmud Kaşqari Fondu ənənəvi olaraq hər il müxtəlif ölkələrdə yaşayan, ümumtürk mədəniyyəti və ədəbiyyatı qarşısında xidmətləri olan məşhur yazarları mükafatlandırır. Bu yaxınlarda fondun idarə heyətinin qərarı ilə görkəmli Azərbaycan şairi Rüstəm Behrudi laureatlar sırasında yer alıb. Bu haqda musavat.com-a Beynəlxalq Mahmud Kaşqari Fondunun Təşkilat Komitəsindən bildirilib.**



Son bir il ərzində Rüstəm Behrudinin Türkiyədə iki, Azərbaycanda üç, Tatarıstanda və Orta Asiya Respublikalarında şeir, nəsr, fəlsəfi düşüncələrdən ibarət əsərlər topluları nəşr edilib, əsərləri Yakutiyada çap olunub. Beynəlxalq Mahmud Kaşqari Fondunun "Mahmud Kaşqari-1000" medalı türk xalqları ədəbiyyatı qarşısında göstərdiyi müstəsna xidmətlərinə görə verilir.

Fonddan bildiriblər ki, bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda təqdimat mərasimi keçiriləcək.

❑ **Musavat.com**

# Bakıda Mikayıl Müşfiqin qalıqları aşkarlandı-Mədəniyyət Nazirliyi hərəkətə keçdi

**"Stalin illərində cəzalandırılanların bir çoxunun qalıqlarının uyuduğu Qaradağ rayonunun Puta qəsəbəsində axtarış işləri aparılarkən mən böyük Azərbaycan şairi Mikayıl Müşfiqin qalıqlarını aşkar etdim".**



Bunu virtualaz.org-a açıqlamasında məşhur Rusiya milyarderi Fərhad Əhmədov deyib.

Xatırladaq ki, hələ bir neçə il əvvəl Fərhad Əhmədov Göyçayda kombinat direktoru olmuş və 1970-ci illərdə güllələnmiş atası Teymur Əhmədovun qalıqlarının axtarışının aparılması üçün Azərbaycan hakimiyyətindən icazə almışdı.

F.Əhmədova axtarış işlərinin aparılmasında "NKVD" və Bayıl türməsinin keçmiş "ölüm korpusunun" tibbi xidmətinin əməkdaşları kömək edirdilər. Və axtarışlar zamanı hüquq-mühafizə orqanlarının məhkəmə hökmlərini və edam cəzalarını icra etmiş keçmiş əməkdaşları F.Əhmədova Azərbaycanın rəhbəri olmuş və 26 may 1956-cı il güllələnmiş Mircəfər Bağırovun, eləcə də 1937-ci ildə cəzalandırılmış şair Mikayıl Muşfiqin basdırıldıqları yerləri də göstərmişdilər.

Sonralar F.Əhmədov M.Bağırovun qohumlarından biri - sabiq ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırovla görüşmüş və ona Azərbaycanın keçmiş rəhbərinin gizli basdırıldığı yer haqda məlumat vermişdi. Virtualaz.org bununla bağlı oxuculara hələ keçən ilin qışında, sabiq nazirin özünə istinadən xəbər çatdırmışdı. 2017-ci ildə Londonda keçirilmiş genetik ekspertiza - DNK analizi "NKVD"nin sabiq əməkdaşlarının informasiyasını təsdiq etdi. Tapılmış qalıqlar M.Bağırova məxsus idi. Və Azərbaycanın keçmiş rəhbərinin qohumları həmin qalıqları köhnə Yasamal qəbiristanlığında dəfn etdilər.

Mikayıl Muşfiqin qalıqlarına gəlincə, F.Əhmədovun sözlərinə görə, o, Qaradağ rayonunda aşkar edilmiş və M.Muşfiqə aid olduğu ehtimal olunan qalıqlar haqda Mədəniyyət Nazirliyinin rəhbərliyinə məlumat verib.

Mədəniyyət Nazirliyi məsələyə münasibət bildirib. Nazirliyin mətbuat xidmətinin rəhbəri İntiqam Hümbətov virtualaz.org-a bildirib ki, F.Əhmədovun öz sensasiyalı tapıntısı haqda bu qurumu xəbərdar etdiyi barədə iddiasına baxmayaraq, Mədəniyyət Nazirliyinin rəhbərliyi tam məsuliyyətlə bildirir ki, nə o, nə də başqa kimsə onlara Mikayıl Muşfiqin qalıqlarının tapılması məsələsi ilə bağlı müraciət etməyib.

Bununla belə, Azərbaycan xalqının Muşfiqə olan həssas münasibətini və F.Əhmədovun bəyanatı ətrafında yaranan ajiotajı nəzərə alaraq, mədəniyyət naziri Əbülfəs Qarayevin sərəncamı ilə bütün məqamlar yoxlanılacaq və müvafiq genetik ekspertiza - DNK analizi aparılacaq.

Mədəniyyət Nazirliyinin mətbuat katibi onu da bildirib ki, bununla birlikdə Muşfiqin anadan olmasının 110 illiyi ilə əlaqədar dövlət səviyyəsində təntənəli tədbirlər keçiriləcək.

# Bakıda ilk eşşək ferması yaradıldı - yarım litr uzunqulaq südünün qiyməti...

## Məsələyə münasibət birmənalı deyil; Eyyub Hüseynovun fikrincə, bu, elmi və dini baxımdan doğru sayıla bilməz; həkim Seyfəddin Əsəd deyir ki, eşşək südünün faydası misilsizdir; rəsmi qurumlar isə məlumatsızdır

**Bir neçə gün əvvəl Azərbaycanda 5 minə yaxın eşşəyin yoxa çıxması ilə bağlı informasiyalar geniş müzakirələrə səbəb oldu. Bunun ardınca isə sosial şəbəkələrdə, bəzi mətbuat orqanlarında eşşək südünün faydaları haqda məlumatlar yayıldı. Deyilənə görə, eşşəkdən alınan süd dünyanın bəlasına çevrilən xərçəng xəstəliyinin, o cümlədən sədəf, serroz, ürək və damar, astma, bronxit xəstəliklərinin müalicəsində böyük əhəmiyyətə malikdir. O da məlumdur ki, dünyanın bir çox ölkələrində eşşək südü və pendiri istehsal edilir. Onların arasında ABŞ, Braziliya, Fransa, İtaliya, İngiltərə, İspaniya, Çin və digər ölkələrin adlarını qeyd etmək olar. Eləcə də qardaş Türkiyədə artıq bir müddətdir ki, eşşək ferması yaradılıb.**






### Bəs Azərbaycanda?

Hələ qədimdən eşşək südünün ana südünə yaxın olduğunu deyənlər, bu səbəbdən bəzən ehtiyac olduqda südəmər uşaqları bu südlə mayalandıranlar olub. Bu günə qədər eşşək südünün gizlincə, baha qiymətə satıldığı barədə məlumatlar yayılırdı. Lakin məlum olub ki, artıq ölkəmizdə də eşşək ferması yaradılıb və ondan alınan süd açıq-aşkar şəkildə reklam olunaraq, satılır. Belə ki, "İnstagram" sosial şəbəkəsində "Donkey milk" adlı qurum mütəmadi olaraq pasterizə edilmiş eşşək südü satması ilə bağlı elanlar verir.

**"Yeni Müsavat"ın əməkdaşı elanla bağlı adıçəkilən qurumla əlaqə saxlayıb. Ümid adlı şəxs əməkdaşımıza bildirib ki, artıq Azərbaycanda da ilk eşşək ferması yaradılıb və burada istehsal olunan südün qiyməti o qədər də baha deyil:**

"Bizim ferma Abşeron rayonu Məhəmmədi qəsəbəsində yerləşir. Qeyd edim ki, bu ferma Azərbaycanda, eləcə də Qafqazda ilk eşşək fermasıdır. Buradakı heyvanlarımızın hamısı həkim nəzarətindən keçib, peyvənd olunub. İstehsal etdiyimiz süd isə standartlara uyğun qablaşdırılır, bu barədə sertifikatımız da var.

Qiymətə gəldikdə isə, süd əsasən 200 və 500 qramlıq şüşələrdə satılır. 200 qramlıq süd 16 manat, 500 qramlıq süd isə 40 manatdır. Hətta 500 qramlıq süd alan müştəriyə 200 qram süd hədiyyə veririk.

Eşşək südü almaq istəyən şəxs fermamıza müraciət edə və yaxud ünvanına sifariş edə bilər".

Bəs aidiyyəti qurumlar bu məsələyə nə deyir? Azərbaycanda eşşək südünün satılmasına icazə varmı?

"Yeni Müsavat" Qida Təhlükəsizliyi Agentliyi ilə əlaqə saxlayaraq, məsələyə aydınlıq gətirməyə çalışıb. Qurumdan bildirilib ki, həmin fermanın mövcud olub-olmaması, istehsal etdiyi məhsulla bağlı məsələ aydınlaşdırılıb, tezliklə açıqlama veriləcək.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a deyib ki, ölkəmizdə eşşək südünün satılması yolverilməzdir:** "Bunun əleyhinəyəm. Avropanın, Afrikanın ən əcaib ənənələri artıq Azərbaycana da gəlir. Dəfələrlə qeyd etmişəm, əgər bu yaxınlarda alabaş kolbasasına da rast gəlsək, təəccüblənməyəcəyik. Çox təəssüflər olsun ki, son vaxtlar eşşək ətinin, südünün lobbisini, təbliğatını aparan insanlar peyda olub və mən bunu anormallıq hesab edirəm".

**E.Hüseynov deyib ki, ölkəmizdə istehlakçı istədiyini yeyə bilər, qanun bunu qadağan etmir, yəni istehlakçı seçimində azaddır:** "Lakin bu o demək deyil ki, İslam ölkəsi olan Azərbaycanda bu cür ət və süddən istifadə olunsun. Xüsusən də din xadimləri bu məsələdə öz etirazını bildirməli, mübarizə aparmalıdırlar. Buna qədər dədə-babalarımız nə ilə qidalanıblarsa, biz də o cür qidalanmalıyıq.

Düşünürəm ki, ölkəmizdə belə bir fermanın yaradılması doğru deyil".

**E.Hüseynov eşşək südünün faydaları haqqında yayılan məlumatların da inandırıcı görünmədiyini dedi:** "Eşşək südünün xərçəng xəstəliyinə təsir etdiyi barədə heç bir elmi məqalədə, jurnalda rast gəlməmişəm. Şəxsən mən Şimali Qafqazda eşşək ferması görmüşəm, lakin oradakı eşşəklərdən süd alınmır, sadəcə, onlardan dağa çıxmaq üçün istifadə edilir".

### Eşşək südünün faydaları haqqında məlumatlar nə dərəcədə doğrudur?

**Təbii üsullarla müalicə eksperti, həkim Seyfəddin Əsədin sözlərinə görə, eşşək südünün faydası misilsizdir:** "Eşşək südü əsasən göy öskürəyin müalicəsində misilsiz effektə malikdir. Bu səbəbdən qardaş Türkiyədə eşşək fermaları yaradılıb, onun südünün istehsalı aparılır. Məlum olduğu kimi, dünyada müxtəlif xəstəliklərin müalicəsində eşşək südündən istifadə edilir. Azərbaycanda isə bu südə hələlik yalnız göy öskürəyin müalicəsi zamanı müraciət edilir".

**Seyfəddin həkim Bakıda eşşək fermasının yaradılmasını təqdir etdiyini dedi:** "Çünki insanlar bu südü əldə etməkdə artıq çətinlik çəkməyəcəklər. Həmçinin heyvanların sayının artırılması südün qiymətinin də getdikcə aşağı düşməsinə təsir edəcək".

❑ **Xalidə GƏRAY,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018



# Sahibsiz itlərə kim sahib çıxacaq?

Samir SARI

Bu günlərdə yolum "20 Yanvar" metro stansiyasının yaxınlığındakı "Hədəf" liseyinə düşmüşdü. Axşam saat 7 civarıydı. "Qanun" nəşriyyatının 15-20 addımlığına çatanda qəfildən 4-5 sahibsiz it avtomobilin üstünə cumdu.

İtlər çox aqressiv idilər. Arada mənə elə gəldi ki, əgər maşının pəncərəsi açıq olsa, onlar avtomobilin içinə tullanarlar. Heç indiyə qədər sahibsiz itləri bu qədər aqressiv görməmişdim. Əgər onlar maşına yox, piyadaların üstünə bu cür cumsalar, bişəkk, ya onu parça-parça edərdilər, ya da elə adamın özü qorxusundan bayılardı.

Xoşbəxtlikdən, itlər məni sona qədər təqib etmədilər, üzbəüzdən gələn başqa bir maşına eyni aqressivliklə hücum edə-edə Tiflis prospektinə doğru şığıdılar. Niyyətləri çox ciddiydi. Avtomobili didmək istəyirdilər.

Sahibsiz itlərin bu qədər qızışması üzərində dərin düşünmədən ağlıma gələn versiya bundan ibarət oldu ki, hansısa maşın onların qrupuna daxil olan birini əzib, ya da kürsək kampaniyası zamanı cütləşmələrinə mane olub, ona görə itlər hər dəfə maşın görəndə hövllənirlər.

Ancaq işin pis tərəfi odur ki, o dalan yolu ilə hər axşam yüzlərlə şagird, abituriyent o tərəfə, bu tərəfə gedir. Əgər həmin itlər bir gün o adamları öz facielərinə görə cavabdeh saysalar, biabırçılıq olacaq.

Onda heç Bakı Şəhər İcra Hakimiyyəti başçısını əvəz edən Eldar Əzizovun verdiyi müvafiq sərəncam da köməyə çatmayacaq.

Budur, Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən mətbuata verilən məlumata görə, ötən il 15 mindən artıq adamı sahibsiz heyvan dişləyib ki, onlardan da 13 mini it tutması olub.

Yerdə qalanlar da yəqin ki, pişik cırmaqlaması, qaz dimdikləməsi, at və eşşək gəmirməsi olar. Bizim fağır camaatı timsah və ya köpək balığı dişləyəsi deyil ki.

Təkcə yuxarıdakı fakt göstərir ki, kiminsə sahibsiz itlərə sahib çıxması lazımdır. Bir-iki il də bu cür davam etsə, sahibsiz itlərin əlindən küçəyə çıxmaq mümkün olmayacaq.

Çünki çox sürətlə artırlar. Nə veclərinədir, ailə planlaması düşünmürlər, soysuzluq problemləri yoxdur, züryətlərin təhsil, səhiyyə, iş, ev, karyera dərdini çəkmirlər, elə bir ucdan doğub-törəyirlər.

Hələ indi yaxşıdır, o sahibsiz heyvanlar yeməyə bir şey tapırlar, ancaq sabah, sayları ifrata varanda və qida çatışmazlığı problemi ilə üzləşəndə məcburən daha da vəhşiləşəcəklər. İtlər "Ac qılınca çapar" kəlamını bilməsələr də, aclığın mahiyyətini bilir, hiss edirlər.

O üzdən gerçəkdən də gərək bir tədbir görülsün. Küçə itləri bəzi cins itlər kimi bəxtəvər deyillər ki, kimsə onlara sahib çıxsın, çipdə gəzdirsin, cakuzidə çimizdirsin, delikates yeməklər yedirtsin. Küçə itləri bəxtsizdir, nəsil şəcərələri etibarı ilə zatıqırıqdırlar, öz güclərini, eləcə də hüquqlarını bilmirlər.

Onları dünyanın çox yerində incidirlər. Düzdür, müdafiəçiləri də var, amma hələlik uğurlu ola bilmirlər.

O gün Türkiyədə bir bələdiyyə sədri küçə itlərini toplatdırmaq əmri veribmiş. Heyvansevərlər onun üstünə töküləblər, o da onları "itsevərlər" adlandırıb. Yekə bir qanqaraçılıq düşmüşdü. Telekanallar bu haqq-hesabı ana xəbər bülletenində göstərirdilər.

Heyvansevərlər tələb edirdilər ki, dövlət sahibsiz itlərə qayğı göstərsin, onları himayə etsin, məhv olmağa qoymasın. Eyni zamanda camaat narazıdır ki, sahibsiz itlər uşaqların, eləcə də böyüklərin həyatı üçün təhlükəlidir, adamlara hücum edir, dişləyirlər və bir çox hallarda quduzluq yayırlar (zatən, küçə itləri qudurmasalar, adama cummurlar).

İndilikdə bizdə müvafiq durum laübalıdır. Heç kəs bilmir ki, bu işlərin axırı necə olacaq.

20-25 il qabaq vyetnamlı tələbələr Bakıxanov qəsəbəsində sahibsiz itlərin populyasiyası məsələsini özləri həll edirmiş. Stansiyaya yaxın yataqxanada yaşayan məcburi köçkün bir dəfə and içərək bu sətirlərin müəllifinə belə dedi: "Seyidin cəddi haqqı, vetnamlı tələbələr bu teratoriyada bir dənə yəəsiz it qoymurlar qalsın, hammısın tutuf, kəsif yeyirlər. Bir də görürsən, hərim-hərim hərriyillər".

O tələbələri mən də görmüşdüm. Arıq uşaqlar idi. Bu şəhərdə sahibsiz itlərin sayı da elə koreyalılar, vyetnamlılar gedəndən sonra artdı. Çox qəddarcasına çıxa bilər, amma bu problemdən çıxış yolunun biri də o tələbələri yenidən ölkəyə qaytarmaqdır.

# "Peşə təhsilinə maraq artıb"

## Mingəçevir "ASAN Peşə" Təhsil Mərkəzində seminar keçirildi; **Amil Əlili:** "83 peşə təhsili müəssisəsi yaradılıb, 60 peşə təhsili müəssisəsinin 2 minə yaxın müəllim və istehsalat təlimi ustasının diaqnostik qiymətləndirilməsi keçirilib"

**Oktyabrın 22-də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 5 ili çərçivəsində Mingəçevir "ASAN Peşə" Təhsil Mərkəzində media nümayəndələri üçün "Azərbaycan Respublikasında peşə təhsili: islahatlar və perspektivlər" mövzusunda seminar keçirilib.**

Musavat.com-un əməkdaşının da qatıldığı seminarda ilk olaraq Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor əvəzi Amil Əlili "Azərbaycan Respublikasında peşə təhsili: islahatlar və perspektivlər" mövzusunda təqdimatla çıxış edib. O, peşə təhsili sahəsinə göstərilən dövlət qayğısı, bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb.

Amil Əlili qeyd edib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində təhsil sahəsində, o cümlədən peşə təhsilində müsbət dinamika müşahidə olunub. Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası, "Peşə təhsili haqqında" qanunun qəbulu bu sahənin inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir.

**Hazırda peşə təhsili sahəsində islahatların aparıldığını deyən Amil Əlili vurğulayıb ki, ilkin rasionallaşdırma tədbirləri nəticəsində 83 peşə təhsili müəssisəsi yaradılıb, 60 peşə təhsili müəssisəsinin 2 minə yaxın müəllim və istehsalat təlimi ustasının diaqnostik qiymətləndirilməsi keçirilib:** "Diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşları orta hesabla 2 dəfə artırılıb. 2018-ci ilin sonunadək bütün dövlət peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin diaqnostik qiymətləndirilməsi başa çatdırılacaq".

**Direktor əvəzi qeyd edib ki, 2016-2017-ci tədris ilindən başlayaraq peşə təhsili müəssisələrinə sənəd qəbulu "ASAN Peşə" layihəsi çərçivəsində həyata keçirilir:**

"Cari dərs ilində "ASAN Peşə" layihəsi bütün ölkəni əhatə edib, Bakı və regionlarda (Gəncə, Sumqayıt, Bərdə, Qəbələ, Sabirabad, Masallı) yerləşən "ASAN xidmət" mərkəzləri ilə yanaşı, Quba və Mingəçevir, Bakıda fəaliyyət göstərən iki "ASAN Kommunal" mərkəzləri də prosesə cəlb olunub".

**Amil Əlili söyləyib ki, bu gün ölkədə mövcud olan peşə ixtisası təhsili müəssisələrinin çoxunda məcburi köçkün və qaçqınlar məskunlaşıb:**

"Bu da onların infrastrukturunun, yeni tələblərə uyğun quraşdırılmasını çətinləşdirir. Hazırda 10 minə yaxın məcburi köçkün soydaşımız peşə təhsili müəssisələrində, o cümlədən pilot peşə təhsili mərkəzlərinin 5-də məskunlaşıb. Məcburi köçkünlər digər yaşayış məntəqələrinə köçürüldükdən sonra həmin müəssisələrin yenidən qurulması nəzərdə tutulub".

**A.Əlili son illərdə peşə ixtisaslarına marağın artdığını vurğulayıb:** "Əvvəlki illərdə orta attestat balı aşağı olanlar müraciət edirdisə, hazırda orta məktəbləri 4 və 5 qiymətlərlə bitirənlər də müraciət edir. Belə tələbələrin sayı 3 dəfədən çox artıb. Belə ki, 2016-2017-ci ildə belə məzunların sayı 10-a yaxın idisə, 2018-2019-cu ildə belə tələbələrin sayı 70-dən çoxdur. Lakin peşə təhsilinə maraq hələ də azdır. Belə ki, peşə təhsilinə müraciət edənlər 11 faiz təşkil edir. Beynəlxalq təcrübədə isə bu minimum 40 faizdir".

**A.Əlili bildirib ki, son 2 ildə 170-dən çox ixtisas üzrə kadr hazırlığı həyata keçirilib:** "Son 2 ildə turizm üzrə hazırlanan 160 nəfərdən 90 nəfəri 4 və 5 ulduzlu hotellərdə işlə təmin olunub. Peşə ixtisası ilə bağlı qəbul işə götürənlərin sifarişləri əsasında formalaşır və ona əsasən bilirik ki, hansı kadrlara ehtiyac var. Əsas 4 prioritet istiqamət üzrə-sənaye, kənd təsərrüfatı, İT ixtisası, turizm üzrə kadr hazırlığına üstünlük verilir. Qəbul planı hazırlanarkən əmək bazarının sorğuları əsasında hansı kadrlara ehtiyac olduğu müəyyən edilir və bu istiqamətlər üzrə kadrlar hazırlanır. Hazırda peşə təhsilinin 23 minə qədər tələbə kontingenti var".

Seminardan sonra media nümayəndələri mərkəzin infrastrukturu və maddi texniki bazası ilə yaxından tanış olublar. Bildirilib ki, cari tədris ilindən fəaliyyətə başlayan mərkəz 3 mərtəbədən ibarətdir və müasir tələblərə cavab verən bütün növ zəruri avadanlıq, ixtisas fənn kabinetləri, təlim və tədris vəsaitləri ilə təchiz olunub. Hazırda təhsil ocağında 5 ixtisas (elektrik, mexanik, santexnik, tikişçi və komputer operatoru) üzrə 100 tələbə təhsil alır.

Media təmsilçiləri tikiş avadanlıqları operatoru, tikişçi ixtisası üzrə qrupda tədris prosesini izləyiblər.

Daha sonra qonaqlar "Rəqəmli idarə olunan dəzgahların kompüter operatoru" ixtisası üzrə təhsil alanların istehsalat təcrübəsi prosesi ilə yaxından tanış olmaq üçün Akkord-Mingəçevir Maşınqayırma Zavoduna səfər ediblər. İstehsalat təcrübəsi zamanı tələbələr iş prosesini yaxından izləmək, istismarda olan hər bir qurğunu, avadanlığı, texnoloji prosesləri, qurğuların nəzarət və idarəetmə sistemlərinin işini öyrənmək və peşəkar mütəxəssislərlə birgə işləmək imkanı qazanıblar.

❑ **Əli RAİS, Musavat.com**











YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

**Son zamanlar ABŞ diplomatlarının Qarabağla bağlı davamlı açıqlamalar verməsi diqqəti cəlb edir. ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kentin Azərbaycana səfəri zamanı BMT qətnamələrini xatırlatması, Vaşinqtonun Ermənistandakı elçisi Riçard Millsin İrəvana torpaqları azad etmək zərurəti barədə mesaj verməsinin ardınca digər amerikalı diplomatın dedikləri də böyük marağa səbəb olub.**



# ABŞ diplomatından Qarabağa gələcək "sülhməramlılar" anonsu

## Keçmiş amerikalı həmsədr işğal zonasına neytral ölkələrin sülhməramlılarının yerləşdiriləcəyindən danışdı; Paşinyan isə növbəti dəfə "top"u Qarabağ separatçılarının üstünə atdı; **politoloq:** "Həmsədr ölkələr anlaşsa..."

ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri Ceyms Uorlik Vaşinqtonda Atlantik Şura analitik mərkəzinin "Dondurulmuş münaqişələr və Kremlin gündəmi" mövzusunda keçirilən müzakirələrdə ilginc fikirlər söyləyib. Diplomat Qarabağda sülh prosesinin son mərhələlərində yerləşdirilməsi ehtimal edilən gələcək sülhməramlı qüvvələrin mümkün tərkibinə işıq salıb.

**Keçmiş həmsədr qeyd edib ki, indiyədək heç bir rəsmi sənəddə əks olunmamış, lakin Minsk Qrupu həmsədrləri arasında vaxtilə əldə edilmiş "centlmen razılığının" şərtlərinə əsasən, gələcəkdə Dağlıq Qarabağda beynəlxalq sülhməramlı qüvvələr yerləşdiriləcəksə, onların tərkibində "nə danışıqlarda iştirak edən ATƏT-in Minsk Qrupu ölkələrinin, nə də qonşu ölkələrin sülhməramlıları olmalıdır". Diplomat ardınca davam edib:** "Bu isə o deməkdir ki, Rusiya sülhməramlıları istisna edilir, eləcə də o deməkdir ki, ABŞ, Fransa və digər ölkələrin sülhməramlıları istisna edilir".

Uorlikin dediklərindən məntiqlə belə nəticəyə gəlmək olar ki, Rusiya, ABŞ, Fransa ilə yanaşı, həmin sülhməramlı qüvvələrdə, əgər nə vaxtsa belə qüvvələr təşkil edilərsə, Türkiyə, İran və Gürcüstanın da iştirakı istisna olunur.

**ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədrinin sözlərinə görə, Dağlıq Qarabağ üçün sülhməramlı qüvvələrin tərkibinin necə ola biləcəyi ilə bağlı məsələlər sonuncu dəfə 10 il bundan əvvəl müzakirə olunub.** "O zamandan bəri 10 il keçib, amma bu məsələyə indiyədək qayıdılmayıb. Düşünürəm ki, bu məsələ müzakirə olunmalı mövzulardan biridir" - diplomat qeyd edib.

Düzdür, əvvəlki illərdə buna bənzər açıqlamalar olmuşdu. Bir sıra ekspertlər də hesab edirdilər ki, işğal zonasındakı Ermənistan hərbi qüvvələri çıxarılandan sonra oraya neytral dövlətlərin sülhməramlılarının yerləşdirilməsi daha optimal variant olardı. Lakin özünü "Qarabağın açarı" statusunda təqdim edən Rusiyanın buna razı olacağı inandırıcı görünmür. Mövzunun Uorlik dediyi kimi, 10 illik fasilədən sonra məhz indi gündəmə gətirilməsinin səbəbləri də maraqlıdır.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a açıqlamasında amerikalı diplomatın dediklərini "maraqlı açıqlama adlandırdı və deyilənlərin məntiqi əsası olduğunu söylədi:** "Çünki sülhməramlıların tərkibində bölgə ölkələrinin təmsil olunması münaqişə tərəfləri arasında yeni mübahisənin əsasını qoya bilər. Məsələn, Ermənistan Türkiyənin sülhməramlı missiyada təmsil olunmasına qarşıdır, bu durumda Azərbaycan deyə bilər ki, biz Türkiyənin iştirak etməyəcəyi sülhməramlı əməliyyata razılıq verə bilmərik. Yaxud Azərbaycan ictimaiyyəti də - müxalifət, QHT sektoru - öz növbəsində Rusiyanın iştirakına qarşı çıxa bilər, çünki ölkəmizdə şimal qonşumuza güvən aşağı səviyyədədir. Həmsədr ölkələrin özünü götürək. Bu məsələ onların öz arasında da fikir ayrılığına, rəqabətə səbəb ola bilər. Əgər bu üç dövlət əməliyyatda iştirak etməli olsa, böyük ehtimalla, missiyaya bərabər sayda əsgər verəcəklər. Nəticədə iki müttəfiq - ABŞ və Fransanın əsgərləri Rusiya əsgərlərinin sayından çox olacaq. Digər bölgə ölkələrindən Türkiyə NATO-nun üzvüdür, Gürcüstan isə NATO-ya namizəddir. Yeni sülhməramlı kontingentin həmsədr və region ölkələrinin qüvvələrindən ibarət formalaşdırılması o deməkdir ki, balans Rusiya əleyhinə açıq-aşkar pozulur və o, azlıqda qalır".

**Ş.Cəfərli qeyd etdi ki, tərkibin bu şəkildə formalaşması Rusiyaya sərfəli deyil:** "Ona görə də hesab edirəm ki, Rusiyanın Ceyms Uorlik tərəfindən açıqlanan formula razılıq verməsi mümkündür. Əlbəttə, Moskva çox istərdi ki, sülhməramlılar yalnız onun hərbçilərindən ibarət olsun, lakin bu variant alınmayacaqsa, tam neytral və bölgədə hər hansı marağı olmayan ölkələrin əsgərlərindən ibarət missiya Rusiya üçün qaneedici sayıla bilər. Hansı variantın Azərbaycan üçün daha əlverişli olmasına gəldikdə isə, bizi sülhməramlıların tərkibindən əvvəl ədalətli sülh maraqlandırır. Sülhməramlılar o vaxt gələcək ki, tərəflər arasında sülh müqaviləsi imzalansın və onlar da bu müqavilənin pozulmamasına nəzarət etsinlər, təhlükəsizliyə təminat versinlər. Ədalətli sülhdən sonra kontingentin həmsədr və bölgə ölkələrinin, yaxud tərəfsiz dövlətlərin əsgərlərindən ibarət formalaşdırılması bizim üçün çox da önəmli deyil, yetər ki, missiyada Rusiyanın aşkar dominantlığı olmasın".

**Qeyd edək ki, Ermənistanın baş nazir əvəzi Nikol Paşinyan oktyabrın 21-i Livanda yerli erməni icması ilə görüşüb və bu dəfə də sülh prosesini pozan mövqe nümayiş etdirib. Novator.az-ın məlumatına görə, o, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq deyib ki, Ermənistanda heç bir hökumət bu məsələni bağlı qapılar arxasında həll edə bilməz:** "Hərdən belə bir yanlış təsəvvür yaranır ki, guya Ermənistanda Dağlıq Qarabağ münaqişəsini bağlı qapılar arasında həll edəcək hökumət ola bilər. 20 ildir gedən bu söhbətə son qoymaq lazımdır, çünki Ermənistanda hətta ən pis hökumət də Qarabağ məsələsində xalqdan gizli heç bir addım ata bilməz".

**Hökumət başçısı əlavə edib ki, hakimiyyətə məqbul görünən həll variantı xalqın müzakirəsinə təqdim olunacaq:** "Məsələni həmin cür həll etməyin mümkün olub-olmadığına xalq qərar verəcək". Paşinyan deyib ki, münaqişənin həllində ən vacib məsələ Dağlıq Qarabağın təhlükəsizliyi və onun statusunun dəqiqləşməsidir: "Ermənistan və diaspor münaqişənin hər hansı həll variantına razılaşsa, ancaq Dağlıq Qarabağ buna yox desə, deməli, məsələ həll olunmayacaq. Dağlıq Qarabağ "xalqı"nın və hakimiyyətinin mövqeyi həlledicidir".

N.Paşinyanın bu mövqeyi parlament seçkisi ərəfəsində daxili auditoriyaya və erməni diasporuna ünvanlanmış mesaj da sayıla bilər. Lakin bu da məlumdur ki, hakimiyyətə gəldiyi ilk gündən Paşinyan Dağlıq Qarabağ ermənilərini "tərəf" kimi sırımağa çalışır, bu da danışıqların formatına ziddir. Belə davranışlarla erməni hökuməti status-kvonun uzanmasına cəhd göstərir. Deməli, seçkilərdən sonra ərazilərin azadlığına sülh yolu ilə nail olunması, yaxud sülhməramlıların yerləşdirilməsi də sadəcə söz olaraq qalacaq.

**Politoloq Ş.Cəfərli Ermənistandakı seçkilərdən sonrakı gözləntilərini də bölüşdü:** "Seçkilərdən sonra sülh prosesində intensivləşmə baş verəcək və İlham Əliyev - Paşinyan görüşü təşkil olunacaq. Artıq iki liderin ayaqüstü görüşləri və ehtimal ki, müəyyən gizli kommunikasiyalar vasitəsilə bu görüş üçün münbit zəmin yaradılıb. Şübhəsiz ki, Azərbaycanın işğal olunmuş ərazilərinin azı müəyyən hissəsi boşaldılmadan heç bir sülhdən söhbət gedə bilməz. Əgər həmsədr ölkələr öz aralarında anlaşarsa, Paşinyana bu istiqamətdə təzyiqlər olacaq. O da bunu anladığı üçün çalışır ki, işğal altındakı rayonları geri vermək məsələsini "DQR"in boynuna qoysun".

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**

# Ermənistan Rusiyadan qoparsa...



**Hüseynbala SƏLİMOV**

**Ermənistanda seçki ərəfəsi daxili siyasi atmosferdə gərginliklər yaşanmaqda davam etsə də əksər təhlilçilər buna rəğmən seçkini həll olunmuş məsələ hesab edir və diqqəti indidən seçkidən sonrakı dövrə yönəltməyə çalışırlar: məlumdur ki, Paşinyan nəhayət legitim baş nazir olacaq, bəs bu, Ermənistanın siyasətində, xüsusən də onun regional müstəvisində, ən başlıcası da bu ölkənin Rusiya ilə münasibətlərində nə kimi nəticələrə gətirib çıxaracaq?**

Bu günlərin söhbətidir. Ermənistanla bağlı bir xəbər diqqətimizi cəlb etdi. Söhbət İrəvandakı Rus Dram teatrı ilə bağlı idi. Ermənilər ölkələrində artıq rus dilli teatra ehtiyac görmürlər. Bəlkə də bu xəbər bir qədər ictimai, siyasətə bilavasitə dəxli olmayan olay kimi görünə bilər, amma düşmən ölkəni Rusiyadan ayıran bu cür amillər getdikcə çoxalır. Ruslar İrəvanda Q.Njdeyə qoyulmuş heykəldən hələ danışmaqda davam edirlər. Amma ermənilərin onu götürməyi düşünmür...

O ki qaldı məsələnin bilavasitə siyasi tərəflərinə, bu yaxınlardaca prezident A.Sarkisyan Moskvaya səfər etmişdi. Məqsəd də KTMT-da general Y.Xaçaturovu başqa erməni ilə əvəz etmək üçün Kremli razı salmaq idi. Əvvəlcə tərəflərin razılaşmadığı deyildi. Amma sonradan Ermənistanın xarici işlər nazirinin müavini bildirdi ki, KTMT-nın baş katibi məsələsi də qısa müddətdə həll olunacaq.

Qərəz, müxtəlif məzmunlu informasiyaları qeyd etməkdə məqsədimiz əski forpostla Moskva arasında dərinləşən ixtilaflara diqqət çəkmək idi. Biz hələ İrəvanın frankofoniya içrə qərar tutmaq istəyindən yazmadıq,- İrəvan nə az, nə də çox, fransız dilli ölkələrin ailəsində qərar tutmaqda israrlıdır.

Bir sözlə, bu bir neçə qeydi ümumiləşdirərək demək olar ki, bir tərəfdən İrəvanı Kremldən ayıran amillər artır, digər bir tərəfdən də Ermənistanın özünə yeni dostlar və ya hamilər axtarmaq istəyi güclənir.

Elə özümüz də əvvəllər dəfələrlə yazmışdıq ki, gec -tez iki yaxın müttəfiq arasında dərin "çat"lar yaranacaq, çünki bunu zəruri edən bir neçə ciddi amil var.

Birincisi, erməniləri Kremlin regiondakı maraqlarını tamamilə onların məqsədlərinə tabe etməməsi, Moskvanın Azərbaycanla da yaxşı münasibətlər saxlamağa çalışması, xüsusən də son dövrlərdə Ankara ilə yaxınlaşması çox əndişələndirir.

İkincisi, İrəvanı Moskvaya bağlayan əsas amil Qarabağdır. Onun nə Avrasiya İttifaqı, nə də Gömrük Birliyi Ermənistanın çökmüş iqtisadiyyatı üçün yaxşı heç nə vəd etmir. Haylar başa düşür ki, Kremlin dostluğundan və quru vədlərindən çörək hasil olmayacaq və bunun üçün də yeni dostlar və hamilər axtarırlar.

Üçüncüsü, Qərb tərəfdarı olan ermənilərlə Rusiya tərəfdarı olan ermənilər arasında çoxdandır ki, savaş gedir. Ötən il hətta S.Sarqsyanın Avropa Birliyi ilə saziş imzalamasına məcbur olması bir növ Qərbdəki erməniləri də razı salmaq istəyilə bağlı idi. Üstəlik, "məxməri inqilab" o deməkdir ki, bu savaşda Qərb tərəfdarı olan ermənilər qalib gəldilər, ona görə ki, Ermənistanın özündə də, Rusiyada da N.Paşinyanı və onun tərəfdarlarını "Sorosun uşaqları" və "Ağ Evin uşaqları" deyə çağırırlar.

Odur ki, növbəti ildən başlayaraq böyük ehtimalla Ermənistanla Rusiya arasında ciddi proseslər yaşanacaq. Aydın məsələdir ki, Kremldə də boş dayanmır, müxtəlif ssenarilər hazırlayırlar.

Kremlin son qərarı bu idi ki, Paşinyan Rusiyanın adamı olmasa da, İrəvan Rusiyanındır və gələcəkdə də onun olmalıdır. Bu səbəbdən də bu yaxınlarda Bakıda səfərdə olan prezident V.Putin İrəvana da yollanmalı idi, amma bəlli olduğu kimi, Rusiya prezidenti N.Paşinyanla Düşənbədə görüşməyə qərar verdi ki, bu da ermənilərə daha bir işarə idi.

Aydındır ki, İrəvanla Moskva arasındakı ixtilaf dərinləşsə Kreml ən əvvəl bunu içəridən həll etməyə çalışacaq. Amma içəridə hələki Paşinyanın dayaqları çox güclüdür və güman ki, Kreml strateqləri də bunu nəzərə alırlar.

İkinci təzyiq üsulu isə əlbəttə ki, Dağlıq Qarabağdır və bunu reallaşdırmağın ən asan yolu da İrəvanın arxasından çəkilmək və onu Azərbaycanla təkbətək qoymaqdır.

Amma düşünürük ki, bu halda Kreml Bakıdan da nəsə qoparmağa çalışacaq və bu əlbəttə ki, ilk növbədə KTMT-na və Avrasiya İttifaqına üzvlüklə bağlı ola bilər.

Bəs Azərbaycan nə etməlidir? Əslində Bakı hərbi-siyasi statusunu müəyyən edərkən, hərbi bloklara qoşulmayan dövlətlərin hərəkatına üzv olarkən Moskvanın maraqlarını nəzərə alırdı - o, nə qonşu Tbilisi kimi buralara NATO-nu çəkib gətirmək fikrində deyil, nə də İrəvan kimi özünə yeni hamilər aramır. Əsas odur ki, Bakı ilə ittifaqda bir müəyyənlik və stabillik var və düşünürük ki, Kreml də nəhayət ki, bunu dəyərləndirməyi bacarmalıdır...

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

**Maliyyə Bazarlarına Nəzarət Palatasının keçmiş rəhbəri Rüfət Aslanlının bahalı brend saatlar kolleksiyasının ardınca, on bahalı avtomobildən artıq maşınının olduğu, şəxsi avtoparka malik olduğu barədə xəbərlər yayılıb.**

Virtualaz.org araşdırıb ki, R.Aslanlının qohumlarının, öz şirkətləri və nəzarəti altında olan müəssisələrin adına yazdırdığı avtomobillərin dəyəri milyonlarla manatla ölçülür. Saytın yazdığına görə, 2015-ci ildə istehsal edilmiş və qiyməti 150 min dollar olan həmin göy Porshe Boxter (10 SN 003) 1967-ci il təvəllüdlü Yeganə Aslanovanın adına yazılıb. Videoda görünən və 2010-cu il istehsalı olan Land Rover Discovery (99 AA 035) müşayiət maşını isə Rüfət Aslanlıya məxsus "Tədarük" MMC-nin adına sənədləşdirilib.

Bu şirkətin adına Rüfət Aslanlının daha iki avtomobili yazılıb: 2007-ci il buraxılışı olan qara Toyota Camry (90 AA 035) və 2015-ci ildə istehsal edilmiş qara Mercedes Benz S500 (10 AA 035).

Araşdırma zamanı virtualaz.org daha bir maraqlı detalı müəyyən edə bilib. Rüfət Aslanlı şəxsi avtoparkının bir hissəsini nəzarəti altında olan müəssisələrin adına yazdırıb. Məsələn, Rüfət Aslanlının şəxsi avtoparkından Toyota Prado (10 PP 343) və Range Rover Vogue (90 AA 343) "Bakı fond birjası" Qapalı Səhmdar Cəmiyyətinin adına sənədləşdirilib. Daha iki şəxsi avtomobili-qara GMC Yukon Denali (10 AB 343) və ağ KIA Cerato-nu (10 AH 343) Rüfət Aslanlı nəzarəti altında olan Milli Depozit Mərkəzinə "təhkim edib".

BMW LI (10 AA 343) və Mercedes S 500 (90 AA 343) avtomobillərinin sənədləri isə Maliyyə Bazarlarına Nəzarət Palatasının və sabiq-məmura malik inşaat şirkətinin adına tərtib olunub.

Rüfət Aslanlıya məxsus daha bir Range Rover (10 YY 035) avtomobili Bank Avrasiya Açıq Səhmdar Cəmiyyətinin bazasında tapılıb. Məlum olduğu kimi, bu bankın sahibi şəxsən Rüfət Aslanlıdır. Məmur bankın idarə olunmasını doğma qardaşı Fuad Aslanova həvalə edib.

# "Məmurlara parlament nəzarəti mexanizmi hərəkətə gətirilməlidir"

## Fazil Mustafa: "Cinayət işi qaldırılmalıdır, araşdırma aparılmalıdır ki, məmurlar bu sərvətləri necə əldə edib"



"Rüfət Aslanlı o vəzifəyə gəldikdən sonra yüzlərlə valyutadəyişmə məntəqəsi bağlandı, yüzlərlə insan işsiz qaldı, nə idi bunun mənası?!"

Vəzifəsindən sui-istifadə edib, bu qədər milyonları ələ keçirən, başqa sözlə, dövləti soyan məmurlar kifayət qədər çoxdur. Rüfət Aslanlı qeyd edilən vəzifəyə təyin ediləndə onu müsbət xarakterizə etmişdilər. Amma indi üzə çıxır ki, "təmiz" məmur beləydirsə, gör onda digərləri nələr edirlər...

Buradan bir sual ortaya çıxır: məmurlara necə nəzarət etmək lazımdır və bu işi hansı qurum həyata keçirməlidir?

**Deputat Fazil Mustafanın sözlərinə görə, yayılan məlumatlar bir daha göstərir ki, bir sıra məmurlar vəzifə səlahiyyətlərindən istifadə edərək istənilən addımı ata bilirlər. Ona görə də məmurlara parlament nəzarəti mexanizmi də hərəkətə gətirilməlidir:** "Biz bu yaxınlarda Milli Məclisdə məsələ qaldırdıq ki, yeni vəzifəyə təyin olunan məmurlar işə başlayan kimi öz yaxın adamlarını yanında yerləşdirmək üçün dərhal köhnə kadrların yaxşısına-pisinə baxmadan hamısını işdən çıxarır, bu isə dövlətçilik ənənələrinə ziddir. Çünki kadr yetişdirmək elə də asan deyil. Ona görə də o cür iş prinsipi düzgün deyil.

Məmurlar vəzifədən çıxarılandan sonra onların barəsində həyata keçirdiyi qanunsuzluqlar barədə məlumatlar yayılır. Yaxşı olar ki, o məmurlar hələ vəzifədə olarkən onların fəaliyyətinə çox ciddi nəzarət edilsin. Nəzarət institutunun olmaması məmurların istədiyi hərəkətləri etməsinə şərait yaradır. Media nəzarəti güclü olmalıdır ki, zamanında o qanunsuzluqlara gedilməsin. Baxın, Rüfət Aslanlı o vəzifəyə gəldikdən sonra yüzlərlə valyutadəyişmə məntəqəsi bağlandı, yüzlərlə insan işsiz qaldı. Nə idi bunun mənası?! Ölkədən pul çıxarılmasına məhdudiyyət qoyuldu. Bunun əvəzinə "qara pullar" variantında pullar ölkədən çıxarıldı. Ölkə iqtisadiyyatına zərbə dəydi. Bu cür məmurlar öz səlahiyyətlərindən istifadə edib yuxarı instansiyaları da aldadaraq özlərinin məqsəd və niyyətlərini həyata keçirirlər. Ona görə də bu məsələlərə vaxtında parlament nəzarətinin də olması vacibdir. Parlamentdə nəzarətə, müəyyən dərəcədə tənqidə şərait yaradılsa, bir fəryat edər ki, vəzifədə olub vəzifədən sui-istifadə edən qüvvələrin qanunsuz hərəkətlərinin tez bir zamanda dayandırılması mümkün olsun. Əks halda, Rüfət Aslanlı kimi məmurlar vəzifədən getdikdən sonra onların sərvətlərinin mediada işıqlandırılması "daldan atılan daş topuğa dəyər" effektidir. Adam yığdığını yığıb, dağıtdığını dağıdıb, iqtisadiyyatın mühüm bir sahəsini çox acınacaqlı vəziyyətə gətirib. Kimlə şəxsi düşməndir, onun strukturunu dağıdıb, vətəndaşların banklarda olan adi vəsaitləri bəhanələrlə geri qaytarılmadı. Yəni bunlar hamısı çox ciddi məsələlərdir, vətəndaşın banklara, iqtisadiyyata, bəzən də dövlətə güvənini azaldır. Ona görə də məmurların fəaliyyətinə ən azı parlament nəzarəti mexanizmi hərəkətə gətirilsə, müəyyən müsbət effekti olar. Bu mexanizm qurulsa, dövlət əmlakının dağıdılması, büdcənin talan edilməsinə qarşı ciddi bir kurs izlənə bilər. Əks halda, o cür qanunsuzluqlara yol verənlər yenə olacaq. İndi əslində hamı bilir ki, hansı məmurlar hansı həyat tərzi sürürlər".

**Deputat vurğuladı ki, haqqında korrupsiyaya yol verdiyi barədə məlumatlar yayılan və özündən yuxarı instansiyalara yalan məlumatlar ötürən məmurlar barədə hüquq-mühafizə orqanları araşdırma aparmalıdır:** "Bir var ki, məmurlar ağıllı islahat paketini aparıb ölkə başçısına təqdim edələr, bir də var ki, məmurlar özlərinin şəxsi maraqlarına uyğun formada gözdən pərdə asan manevrlərlə bir sənəd təqdim edələr. O cür məmurlar cavab verməlidirlər.

Rüfət Aslanlının avtomobil kolleksiyasından tutmuş digər sərvətləri barədə hər gün mediada məlumatlar yayılır. Hüquq-mühafizə orqanları bu məsələni diqqətə alıb fakt üzrə cinayət işi qaldırmalıdır, araşdırma aparılmalıdır ki, məmur onları necə əldə edib. Məmurlar bilməlidir ki, dövlət əmlakı onun şəxsi mülkiyyəti deyil, onu talamaq olmaz, talayacaqsansa, cəzasını alacaqsan".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Azərbaycanda cinayətlərin ilginc statistikası

## Məhkəmələrdə daha çox üç cinayət işi istintaq edilir: dələduzluq, vəzifə saxtakarlığı, namus cinayəti...



**Son illər Azərbaycan məhkəmələrində əsasən üç kateqoriya üzrə cinayət işləri çoxluq təşkil edir. Bunlar eks-məmurların korrupsiya əməlləri, namus cinayətləri və dələduzluq işləri üzrə proseslərdir. Kriminal mövzuda yazan jurnalistlər daha çox sözügedən istiqamətdə olan məhkəmə proseslərinin çoxluq təşkil etdiyini qeyd edir. Maraqlıdır, bu, bir Azərbaycan reallığıdır, yoxsa bu durum bütün ölkələr üçün keçərlidir? Nəyə görə Azərbaycan insanı məhz bu istiqamətlər üzrə cinayətlərə daha çox meyl edir?**

**Eks polis rəisi Mahmud Hacıyev** hesab edir ki, məsələyə bir neçə kontekstdən yanaşmaq lazımdır. Onun fikrincə, məsələyə cəmiyyət və cinayət kontekstindən yanaşanda məlum olur ki, iş-güc olan yerdə cinayət də olmalıdır: "Bu, çürümüş ideologiyadır ki, bizdə cinayət olmayacaq. Cinayətin olmağı, artıb-azalmağı, hansı təsnifatda olması müzakirə mövzusudur. Bütün cinayətlərə zaman öz təsirini göstərir. Sovetlər birliyi dönəmində elə cinayətlər var ki, onlar daha dəhşətli idi, sadəcə, qapalı dövlət idi, eşidilmirdi. Həmçinin bir çox cinayətlər ona görə baş vermirdi, sadəcə, baş vermək imkanı olmurdu. İndi isə xaricə çıxışlar çoxalıb, müstəqillik əldə olunub. Müstəqil bazar siyasəti yürüdülüb. Əmlaklar hamısı özəlləşib. Bu proseslərin hamısı cinayət əməlinə təsir edən əməllərdir. Bəziləri vəzifədən çıxdı. Onlara da cinayət işi qaldırıldı. Çünki vəzifədən sui-istifadə halları çoxdur. Lift İdarəsinin müdiri ilə bağlı sensasion yazılar getdi. Yəni ki, bunlar vəzifədə olanda vəzifə cinayətləri törədirlər. Bir məqam olur, "ÇP" baş verir, ocaq yanır. Yoxlama zamanı məlum olur ki, vəzifə cinayətlərinin subyekti olub".

**M.Hacıyev bildirdi ki, sovet dönəmində prokuror nəzarəti deyilən bir funksiya vardı və yarım ildən bir belə yoxlamalar olurdu. Müsahibimizin sözlərinə görə, indi SSRİ dağıldı, təzə qanunlar çıxdı və tez-tez yoxlamalar aparmağı dayandırdılar:** "Özəl şirkətlər yarandı. Zamanın dəyişməsi də buna təsir edir. Sovet vaxtında insanlar prokuror nəzarətindən qorxurdu. Amma indi görür ki, nəzarət yoxdur, durumdan sui-istifadə edir. Dələduzluq faktlarını zamanla əlaqələndirirəm. SSRİ dönəmində il ərzində 15-20 cinayət olardı, ya yox. Eni-uzunu 500 kilometr olan ölkə üçün bu cinayətlər çoxdur. Bu cinayətlərin artımında qanunauyğunluq görürəm".

**Ekspert hesab edir ki, Azərbaycan üçün namus cinayətləri o qədər də çox deyil. Müsahibimizin fikrincə, Azərbaycan müsəlman ölkəsidir və Qafqazda bu saylı cinayətlərin az da olsa baş verməsi mümkündür:** "Ümumi say götürəndə o qədər də çox deyil. Bu tipli cinayətlər hər zaman olur. Zaman, sərhədlərin açılması buna təsir edir. Ailə münaqişəsi cinayətlərinə gəlincə, bunun da izahı var. Azərbaycan qadınlarının müəyyən qismi Dubaya, İrana gedir və xoş məramla getmir. Bu cür milli mentalitetə yaraşmayan səfərlər etmiş insanların həyat yoldaşı, doğması var. Təsir edən amillərdən biri də odur. SSRİ vaxtında Azərbaycan qadınının oraya nə işi vardı? Dövlət məmurunun özü ildə bir dəfə ölkədən xaricə çıxa bilirdi həmin illərdə".

**M.Hacıyev sonda bildirdi ki, Azərbaycanda namus cinayətlərinin sayında artım olmasa da, dələduzluq və vəzifə cinayətlərində xüsusi artım özünü göstərir. Amma o, bunu Azərbaycan xalqına xas hadisə hesab etmir:** "Potsovet məkanını götürsək, qeyri-ölkələrdə də bu tendensiyalar var. Qonşu Gürcüstanda da kifayət qədərdir. Özbəkistanda da, Qırğızıstanda da belə cinayətlər çoxdur. Rusiyanın özündə cinayət baş alıb gedir. Halbuki SSRİ-nin vaxtında cinayətlərin sayı müstəqil Rusiyadakından dəfələrlə az idi".

**"Yeni Müsavat"ın kriminal yazarı İlkin Muradov bildirdi ki, onun müşahidələrinə görə, namus cinayətlərinin baş verməsinin əsas səbəbi sosial problemlərlə bağlıdır. Həmkarımız məhkəmə işlərində apardığı müşahidələrə əsasən bildirdi ki, ailələrdə baş verən bütün söz-söhbətlər maddiyyat üzərindən başlanır:** "Kişinin işsizliyi, ailənin dolanışığının zəifliyi problemlərə səbəb olur. Qısqanclıq maddiyyatın üzərindən, xırda-xırda problemlərdən sonra yaranır. Əksər namus cinayətlərində ölən qadınlar olur. Amma ölməyən, yaralanan qadınların ifadələrindən aydın olur ki, həyat yoldaşı ilə yola getməməsinin səbəbi maddiyyat imiş. Qadın başqa bir həyat qurmaq üçün yeni biri ilə əlaqəyə girir, normal həyat yaşamaq üçün ərini tərk edir. Əksərən qadın sırf başqa kişi ilə intim münasibət qurmaq üçün ərinə xəyanət edib getmir, daha yaxşı həyat yaşamaq üçün gedir. Namus cinayətlərinin böyük əksəriyyətinin başvermə səbəbi mentalitetdir".

**İ.Muradov bildirdi ki, namus cinayətləri əsasən qadınların sosial şəbəkələrdə kişilərlə tanış olması nəticəsində baş verir. Onun sözlərinə görə, bəzi İnstaqram istifadəçisi olan kişilərin "gəlin nömrəsi" axtarışına çıxması bu kimi hallara səbəb olur:** "Maddi problemlərdən qaçan qadınlar imkanlı kişi ilə tanış olub, həyatlarını düzəltmək arzusunda olur. Amma həmin adamlar da onlardan başqa niyyətlə istifadə edirlər".

**Kriminal yazar hesab edir ki, dələduzluq işlərinin artmasının əsas səbəbkarı öz vətəndaşlarımızdır. Çünki insanlar öz işlərini qeyri-qanuni yollarla həll etməyə çalışır, kimlərəsə rüşvət verirlər. Ortada vasitəçi olan maklerlərə, vasitəçilərə, işə düzəlmək, diplomların, hansısa saxta sənədlərin əldə olunması üçün pul verirlər:** "Dələduzluq işlərində həbsdə olan şəxsin azadlığa buraxılması üçün maklerlik məqsədilə vəkillərə verilən pulları da yaddan çıxarmaq olmaz. Buna səbəb vətəndaşlarımızın onları bu cür aldadan şəxslərlə bağlı həddən artıq məlumatsız olmasıdır. Elə işlərə görə külli miqdarda pul verirlər ki, nəinki qanuni, qeyri-qanuni yollarla da həll olunması mümkün deyil. Çünki bu cür şəxslərin başlıca məqsədi vətəndaşın məlumatsızlığından istifadə edərək, onu aldatmaqdır".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

**Ölkədə demokratik siyasi müxalifətin zəifləməsi, proseslərə təsir imkanını itirməsi artıq reallıqdır. Bir sıra ekspertlər, siyasətçilər belə bir vəziyyətin əslində ölkə üçün yaxşı olmadığını, yaranan boşluğu radikal qüvvələrin doldurmasının isə xüsusilə təhlükəli olduğunu vaxtaşırı bəyan edirlər. Məsələyə bu prizmadan yanaşanda sivil demokratik siyasi müxalifətin dirçəlməsi əslində hakimiyyətin daha çox marağında olmalı deyilmi?**

# Müxalifət partiyalarından çağırış

## "Sivil müxalifətin güclənməsi hakimiyyətin də marağında olmalıdır"




**AMİP katibi Əli Orucov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, demokratik institutların vacib elementlərindən biri də siyasi partiyalaşma və çoxpartiyalılıqdır. Mərhum prezidentlər Əbülfəz Elçibəy və Heydər Əliyevin prezidentliyi dövründə bu prinsiplərə əməl edilirdi, pis-yaxşı siyasi mübarizə və rəqabət üçün mühit vardı, partiyalar güclü və cəmiyyətdə də güclü mövqeyə, təsirə sahib idi: "Bu həm də ondan irəli gəlirdi ki, hər iki prezident partiyalaşmanın və partiyaların siyasi proseslərdə, siyasətdə, cəmiyyətdə, dövlət quruculuğunda və möhkəmləndirilməsində, təhlükəsizliyin qorunmasında, eləcə də daxili sabitliyin qorunmasında önəm daşıdığının fərqində idilər. Lakin təəssüflər ki, indi siyasi partiyaların, xüsusən də müxalifətin durumu fərqlidir. Bu gün, məsələn, hər hansı bir nazirin, hansısa maliyyə-oliqarxın gücü, ictimai-siyasi proseslərə təsir gücü ölkədə qeydiyyatdan keçən 54 partiyanın birgə gücündən qat-qat artıqdır. Bu cür mühitdə radikalizm, fanatizm və nifrət özünə meydan qazanır, demokratik mübarizə ilə öz istək və arzularını həyata keçirə, haqq və hüquqlarını qoruya bilməyəcəyini görən cəmiyyətin fəal təbəqələri siyasi fəaliyyətdən və siyasi proseslərdən çəkilir, alternativ variantlar axtarır. Bu variantlar isə dövlətin təhlükəsizliyinə və stabilliyinə nəinki təminat vermir, əksinə, müəyyən problemlər yaradır. Ona görə də hakimiyyətlər siyasi partiyalaşmaların inkişafına, demokratik müxalifətin inkişafına, sağlam rəqabətə şərait yaratmalıdırlar. Cəmiyyətə təsir edə bilən müxalifət partiyalarının olması həm ölkənin, həm xalın, həm də hakimiyyətin özünün maraqları üçün vacibdir. Dünya təcrübəsindəki acı hadisələrin Azərbaycanda yaşanmaması üçün hakimiyyət müxalif siyasi partiyaların inkişafına, siyasi sosiallaşmaya şərait yaratmalıdır. Türkiyə praktikasına nəzər salın, ölkə təhlükəli mərhələyə qədəm qoyanda müxalifətli-iqtidarlı bütün siyasi təşkilatlar dövlətin və bu dövləti idarə edən qanuni hakimiyyətin yanında oldular. Yaxud müxalifət partiyası olmasına rəğmən dövlət və xalqın maraqları naminə iqtidar partiyası olan AKP ilə müxalifət partiyası ittifaqa girdi. Bu ittifaqın, birliyin böyük nəticələri oldu. Bax, partiyaların güclü olması, təsir imkanlarına sahib olması bunun üçün lazımdır, dövlətin və xalqın var olması üçün gərəkdir".

AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, sivil demokratik müxalifət zəifləyib, siyasi sferaya və cəmiyyətə təsir imkanlarını itirib, elektoral bazası yox olmaq dərəcəsinə enib. Bir sözlə, demokratik cəmiyyətlərin bir hissəsi olmalı olan müxalifət demək olar ki, yox səviyyəsindədir: "Bu vəziyyət hökumətin bugünkü siyasi maraqlarına uyğun olsa da uzun prespektivdə çox mənfi və təhlükəli tendensiyaların əsasını qoya bilər. Belə ki, sivil qaydalarla siyasi mübarizə aparmalı olan partiyalar sıradan çıxdıqdan sonra bu yeri daha radikal və idarə olunmaz qüvvələr alacaq. Protest elektoratına ya sivil siyasi partiyalar yön verməlidir, ya da hansısa kənar qüvvələrin maliyyə, dəstək və təsiri ilə formalaşacaq nəzarətsiz, radikal qüvvələr bunu edəcək. Nəzərə alsaq ki. Azərbaycan ona heç də hər mənada dost olmayan bəzi dövlətlərin əhatəsində yerləşir, o zaman bu təhlükənin hansı həddə çata biləcəyini təsəvvür etmək o qədər də çətin olmamalıdır. Deməli, ilk növbədə hakimiyyət maraqlı olmalıdır ki, demokratik sivil müxalifət güclü olsun. Dövlətin xarici təhlükələrə qarşı müqavimətini artırmağın yollarından biri də sağlam, sivil müxalifət partiyalarının güclü olmasıdır. Buna nail olmaq üçün də ilk növbədə siyasi islahatlara başlanılmalı, siyasətdə düşmənçilik prinsiplərini aradan qaldırıb, sağlam rəqabət mühiti yaradılmalıdır. Partiyaların güclənməsi və siyasi sistemin güclü bir həlqəsi olması nəinki bugünkü iqtidarın, hətta Azərbaycanın təhlükəsizlik maraqlarına xidmət edən amillərdəndir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Həbsdəki MTN generallarını bağışlamaq olarmı?

**Həbsdə olan Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov barələrində bəraət hökmünün çıxarılmasını istəyirlər. Bununla bağlı generallar artıq Apelyasiya Məhkəməsinə müraciət ediblər və ötən həftə proses start götürüb.**





## İlham İsmayıl: "Bağışlanmalarının tərəfdarıyam"
## Əsabəli Mustafayev: "Apelyasiya şikayətində cəzalarının azaldılması, sadəcə, absurddur"

Onların şikayətinə hakim Sahibxan Mirzəyevin sədrliyi ilə baxılır. Məhkəmə prosesinin başlaması ilə generalların azadlığa buraxılacağı barədə iddialar meydana çıxıb. Bu iddialarla bağlı Baş Prokurorluğun mətbuat xidməti geniş məlumat yayıb. Məlumatda deyilir ki, ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin məhkəmənin hökmü ilə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş bəzi vəzifəli şəxslərinin vaxtından əvvəl azadlığa buraxılmaları ilə əlaqədar yayılmış informasiyalar həqiqəti əks etdirmir. Məlumatda o da bildirilir ki, həmin iki nəfər cəzasını çəkib bitirdikləri üçün azadlığa buraxılıblar.

MTN generalları ətrafında gedən müzakirələrdə ən çox bu sual diqqəti çəkir: cinayətləri sübut olunmuş, Azərbaycanın təhlükəsizlik orqanına ciddi zərbələr vuran MTN generalları bağışlanılsınmı?

**Sabiq MTN polkovniki İlham İsmayıl "Yeni Müsavat"a bunları dedi:** "Əgər çox şeyi etiraf edirlərsə, əlbəttə, bağışlanmaq şansları varsa, bağışlanıla bilərlər. Amma bir məsələni vurğulayaq, sonra bağışlayaq. Rəisin, yəni nazirin tabeçiliyində olanlar onun dediklərinə əməl etməlidirlər. Amma əməliyyat-axtarış haqqında Azərbaycanın qanunu var. Mən məsələnin sırf qanuni tərəfini götürürəm. Qanunun 14-cü maddəsinin 2-ci bəndində yazılır: "Tabeliyində olan adam rəisin sözünə əməl edəndə ilk növbədə, onun qanuni olduğunu nəzərə almalıdır. Əgər qanunsuzdursa, tabeçilikdə olan şəxs qanunu əsas götürür, rəisin sözünü deyil, yəni etiraz edə bilər. Təəssüflər olsun ki, bu şəxslərin heç biri nazirin qanunsuz tapşırıqlarına qanunu nəzərə almadan, qanunu üstün bilmədən əməl ediblər. İstənilən halda bütün günahlar onlarda deyil. Müəyyən miqdarda günahlar onlardadır. Amma onlar əgər bağışlanılarsa, nəzərlərinə çatdırmaq lazımdır ki, hansı nazirliyin olmasından asılı olmayaraq, xüsusilə hərbi sahədə, verilən tapşırıqların qanuni olub-olmadığını nəzərə alsınlar. Sadəcə olaraq, fikirləşməsinlər ki, rəis bunu deyib, yerinə yetirməliyəm. Şəxsən mənim düşüncəmi bilmək istəyirsinizsə, mən onların rəhbərinin daha çox günahkar olduğunu bilirəm və bu baxımdan bağışlanmalarının tərəfdarıyam".

**Hüquqşünas Əsabəli Mustafayev bildirdi ki, bağışlanmaq və bəraət anlayışları tamamilə fərqlidir:** "Bəraət vermək o deməkdir ki, bunların əməllərində heç bir cinayət tərkibi olmayıb. Məhkəmə araşdırmasının sonunda qərar qəbul olunacaq, yəni onların əməllərində cinayət tərkibinin olub-olmadığını məhkəmə müəyyən etməlidir. İstintaq gedib və onların məsələlərində cinayət tərkibinin olması ittiham aktında qeyd olunur. Birinci instansiya məhkəməsi artıq hökm qəbul edib. Apelyasiya şikayəti vermək onların hüququdur. Məhkəmə də bu hüquq əsasında hərəkət edir. Verilən istənilən şikayətə baxılmalıdır. Amma o demək deyil ki, tələb edirlərsə, bu işə baxılırsa, proses bəraətlə yekunlaşmalıdır. Məhkəmə şikayətə baxacaq, görsə ki, onların cinayət əməlləri tam sübut olunub, o zaman qərarı qüvvədə saxlayacaq. Ola bilsin ki, qismən dəyişiklik edilsin və hansısa epizod çıxarılmaqla cəzada dəyişiklik olsun, hökm isə qüvvədə saxlanılsın. Mətbuatda gedən məlumatlarda görürük ki, bundan qabaq olan proseslərdə MTN işçilərinə qarşı tez-tez belə hallar baş verir ki, apelyasiya instansiyası onların cəzalarını azaldır. Bu da mənə vətəndaş olaraq pis təsir edir. Əgər onların işində həmin maddələr, özü də ağır maddələr hələ də qalırsa, bəraət verilməsə də, necə onların cəzaları azaldıla bilər və bir müddətdən sonra onlar azad olunar? Bu, ictimaiyyət daxilində ciddi qınaq mənbəyidir. Şahidi oluruq ki, az ağır, ağır cinayətlərə görə sərt cəzalar verirlər. Bu, generallar isə dövlətin əsas sütunlarından biri olan qurumu təmsil edirdilər, onun adı ilə fəaliyyət göstərirdilər, fəaliyyətlərində isə sui-istifadəyə yol verirdilər. Bütün bunların qarşılığında onlara ya az cəzaların verilməsi, ya da apelyasiya şikayətində cəzalarının azaldılması, sadəcə, absurddur. Ümid edək ki, Apelyasiya Məhkəməsi bu dəfə onların cinayətlərinə qarşılıq ədalətli qərar qəbul edəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018



# Geopolitik avtobus marşrutu

Zamin HACI
zaminhaci@gmail.com

“Qardaşım kayfdadır, hoqqa çıxarmaq istəyir”

*(meyxana sənətimizin incilərindən)*

**Deyir, orta məktəbdə fizikanı yaxşı oxumasan, həyatın gələcəkdə möcüzə və sehrlə dolu olacaqdır. Bunu niyə yazıram? Oxucular da yəqin beziblər, fikirləşirlər, bunun elə iki yazısından üçü təhsil problemlərimiz haqdadır. Sadəcə, dünən bir az əsəbləşmişdim, çünki uşaq məktəbdən gəlib deyir: “Sənin cibxərcliyi üçün verdiyin pulun 2 manatını sinif rəhbərimiz tutdu aldı, hamıdan yığırlar, dərs otağının qapısını remont edəcəklər, pəncərə sınıb, dəyişilməlidir, bir də süpürgəçiyə verəcəklər”. Fikirləşdim, ey dadi-bidad, görəsən biz məktəb direktorunun manikür-pedikür xərclərini, Bakı Şəhər Təhsil İdarəsinin zibil pulunu, maarif nazirinin əmisi oğlunun səhər yediyi xaşın pulunu niyə ödəmirik? Pis valideynlərik.**

Azərbaycanda məktəb doğrudan dözülməz bir şəkil almışdır, buna nəsə əncam çəkilməsə, axırı yaxşı olmayacaqdır. Təsəvvür elə, onsuz dərs keçilmir, sən uşaqlarının əlavə kurslarda öyrənməsinə bir ətək pul xərcləməli olursan, üstəlik, onun yalandan gedib-gəldiyi, axırda alacağı saxta kağız üçün “oxuduğu” binanın remontuyla da məşğul olmalısan. Niyə axı? Nə üçün? Görəsən, dünyaya nöş gəlir insan?

Srağagün bir təhsil ekspertinin də açıqlamasını oxudum, deyir, ibtidai siniflərin dərsliklərini müəllimlər və valideynlər güclə anlayır, gəl gör uşaq olsun. Tam haqlıdır. Kurikulum adıyla uşaqların başında əcaib eksperiment aparırlar. Bunun birini yazım, biləsiniz. Uşaqlar üçün dərsliklə yanaşı müəllimlər üçün metodiki vəsait də çap edirlər və dərslikdə verilən misalın həll üsulu yalnız metodik vəsaitdə göstərilir! *(Bu hiyləni mənə anladan dostum, iqtisadçı ekspert Rövşən Ağayevə təşəkkür eləmişəm)*. Başa düşürəm, bunu izah etmək bir az çətindir, başıma gəlməyənə qədər mən də anlamazdım. Bir gün 4-cü sinifdə oxuyan uşaq riyaziyyatdan tapşırıq gətirib, deyir, bunu həll edə bilmirəm. Baxdım dərsliyə, gördüm orada heç bir dərsdə bunun üsulu yazılmayıbdır. İnternetdə eyni sinfin müəllimlər üçün vəsaitində isə üsul verilibdir. Düzgün adamsınızsa, bunu niyə uşaqlar üçün də açmırsınız? Müəllim özünü çoxbilmiş göstərib uşaqları, valideynləri qazlasın, repetitorluq edə bilsin, eləmi? Bu nə ədəbsizlikdir? Rəhmətlik təhsil eksperti Əlövsət Osmanlı son vaxtlar tez-tez yadıma düşür. Əlövsət müəllim öləndən sonra pedaqoji sahədə böyük boşluq yaranıb.

İndi keçək gündəlik məsələlərə. Bura isə Bakının sürüşməsi, avtobuslarda qayda yaradılması və Rüfət müəllimin maşınları daxildir. Axırıncı qardaşımız maliyyə nəzarəti idarəsində işləyirdi, hazırda vurulmuşdur, o üzdən paxırlarının üstü açılır, biz də ta bezdirməyək. Fransada çaxır üzümü sahəsi, ferması-zadı varmış, bacarıqlı adamdır. Harada belə dövlət məmuru var? Fəxrimizdir. Kim orada olsa yeməzdi? Şeyxin bu temada yazdığı hədisdə deyilən kimi: “Kimin günahı yoxdursa, üzüyünə brilyant daşı birinci taxsın”. Nəsə, bizim evimizi paxıllıq yıxacaq. Yenə Rüfət müəllim yeyib doymuşdu...

Sürüşmə temasında da yaxşı bir qara yumor vardır, deyir, əgər dağ sənə tərəf gəlirsə, adın isə Məhəmməd deyilsə, dərhal oranı tərk et, sürüşmə baş verir. Abşeron yarımadası hazırda buz üstünə çıxmış dana kimi oynaqlayır, bu isə zəhmətkeşlərimizə heç yaxşı perspektiv vəd etmir. Ən əsası, televiziya qülləmiz təhlükə altındadır. Birdən o sürüşsə, bəs biz nəyə baxarıq? Azərbaycan həqiqətlərini dünyaya nə cür yayarıq? Tək peyklə yaymaq bəs eləmir, teleqülləmizin ucu ermənilərin gözünə girirdi.

Qaldı avtobuslar, dünən onlardan gələn xəbər artıq geopolitik qalmaqala oxşayırdı, çünki Bakıda bir marşrut avtobusu ABŞ səfirliyinin avtomobilinə girmişdi. Belə getsə, Donald Tramp növbəti çıxışlarında bizim avtobuslara toxunmalı olacaqdır.




# Trampın emissarı sabah Bakıya Moskvadan gələcək - mühüm gözlənti

## Boltonun Bakı, Moskva və İrəvanda verəcəyi əsas mesaj; Qarabağ da diqqətdə; **səfər öncəsi İrəvan ABŞ-ı qəzəbləndirən demarş etdi:** Amerikanın Ermənistana yetərli maraq göstərmədiyindən gileylənən Paşinyan... İrana reverans elədi

**Dünən ABŞ prezidenti Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Moskvaya gəlib. “RİA Novosti”nin məlumatına görə, Boltonun səfər zamanı Rusiya prezidenti Vladimir Putin, xarici işlər naziri Sergey Lavrov və Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşləri planlaşdırılırdı. Trampın adamının Rusiyadan sonra oktyabrın 24-də Azərbaycana gələcəyi, daha sonra isə Ermənistana və Gürcüstana gedəcəyi gözlənilir.**

Amerika xarici siyasətinin “qırğıları”ndan olan Boltonun Rusiya və Güney Qafqaza səfərində əsas gündəlik təxminən bəllidir: təhlükəsizlik məsələləri, Suriya (Yaxın Şərq) mövzusu və İrana qarşı sanksiyalar. Bakıda Dağlıq Qarabağ məsələsinin də müzakirə predmeti olacağı istisna olunmur.

Trampın emissarı üç Qafqaz ölkəsinin ilk növbədə İrana qarşı sanksiyalarla bağlı mövqeyini öyrənəcək. Onlara rəsmi Vaşinqtonun mövqeyini və ismarışlarını çatdıracaq. Bir çox rusiyalı təhlilçilər Boltonun bölgəyə səfərindən konkret olaraq, Rusiya üçün yaxşı bir şey gözlənilmədiyini vurğulayıblar...

*****

**“ABŞ çoxdan Gürcüstanla NATO arasındakı alyansdan istifadə edərək, öz hərbi gəmilərini Qara dənizə dislokasiya etmək istəyir”. Bunu nyus.am saytına açıqlamasında rusiyalı politoloq Sergey Markedonov Boltonun səfərindən danışarkən deyib (axar.az).**

Onun sözlərinə görə, Vaşinqton Türkiyənin şərqində öz hərbçilərini yerləşdirmək üçün bazalar yaratmaq və bunun üçün bir neçə türk limanını tələb eləmək niyyətindədir. “Hadisələrin belə gedişi Cənubi Qafqazdakı situasiyanı dəyişə bilər. Bu regionda bir sıra amerikalı ekspertlərin fikrincə, ABŞ öz təsirini itirməyə başlayıb. Buna səbəb Vaşinqtonun regiona marağını itirməsidir” - ekspert qeyd edib.

**Markedonov həmçinin Bakının öz qlobal enerji layihələrini həyata keçirərkən hər zaman Vaşinqtonla əməkdaşlıq etdiyini bildirib. O, Boltonun Azərbaycana Dağlıq Qarabağla bağlı hansısa yeni ideyalar təklif edəcəyini söyləyib:** “Bolton yaxşı anlayır ki, İrəvanı KTMT-nin əlindən dərhal almaq mümkün olmayacaq. Hələlik, o, Cənubi Qafqaza buradakı ölkələrin növbəti siyasi kursunu öyrənmək və İran məsələsi ilə bağlı daha detallı mövqelərini eşitmək üçün gəlir”.

*****

Con Boltonun Moskvadan sonra Gürcüstanı deyil, Azərbaycanı tərcih etməsi də müəyyən mənada ölkəmizin regionda strateji önəminə və yerinə verilən dəyər hesab olunmalıdır. Həmçinin bu, Ağ Evin Moskvadan sonra “saat əqrəblərini” məhz Bakı ilə tutuşdurmaq istəyi kimi şərh oluna bilər.

Doğrudur, Bakı Tiflisdən fərqli olaraq, birmənalı qərbyönlü kurs aparmır, xarici siyasətdə balansa üstünlük verir. Bununla belə, Azərbaycan Ermənistandan fərqli olaraq müstəqil siyasət yürüdür, bölgədə öz sözünün ağasıdır və Qərb üçün mühüm energetik əhəmiyyətə malikdir.

Bunu Bolton da bilməmiş deyil. O sırada bölgəni Avropa ilə birləşdirən bütün meqa-layihələr, yeni strateji dəmiryolu və neft-qaz xətləri Rusiyadan yan keçir ki, bu da Azərbaycanı Qərbə daha da yaxınlaşdırıb. Başqa sözlə, satellit Ermənistan Azərbaycan qədər ABŞ üçün əhəmiyyət kəsb edə bilməz.

*****

**Yeri gəlmişkən, bu arada Ermənistanın baş nazir əvəzi Nikol Paşinyan ABŞ-ın Ermənistana marağının az olmasından gileylənib. “Yeni Müsavat”ın erməni qaynağına istinadən verdiyi məlumata görə, bu barədə o, Boltonun gözlənilən səfəri haqda danışarkən deyib.**

“İrəvan Vaşinqtonla daha sıx əməkdaşlıq qurmağı planlaşdırır. Praktik olaraq, bizim bütün xarici tərəfdaşlarımızla ən yüksək səviyyədə danışıqlar gedir. Bununla belə, əfsus ki, Amerika tərəfi Ermənistanla təmas planında aktivlik göstərmir. Ümid edirik ki, Amerika-erməni əlaqələri tezliklə intensivləşəcək”, - deyə Paşinyan narazılığını gizlətməyib.

Rusiyaya vaxtaşırı sədaqət andı içən Paşinyanın bu gileyi ilk baxışda qəribə görünə bilər. Amma nəzərə alanda ki, söhbət “iki stul”da oturmaq siyasəti aparmaq istəyən Ermənistanın hazırkı hiyləgər rəhbərliyindən gedir, o zaman təəccüblənməyə dəymir.

Bunu tipik erməni siyasi riyakarlığının növbəti parlaq təzahürü də saymaq olar. Çünki Rusiyanın regionda yeganə hərbi qalası, vassalı funksiyasını yerinə yetirib, yeri gələndə hətta Rusiyanın xahişi ilə Suriyaya erməni hərbi kontingenti göndərmək qərarı verib, eyni zamanda Qərbin, ABŞ-ın müttəfiqi olmaq istəyi yalnız məkrli ermənilərin ağlına gələ bilər.

*****

Bu da hamısı deyil. Nikol Paşinyan Boltonun səfəri ərəfəsi ABŞ-a gileyləndiyi gündə İrana ünvanlı və Ağ Evi qıcıqlandıracaq reverans edib - özü də İran məsələsi Con Boltonun səfər proqramında əsas mövzu olduğu vaxtda.

“Yeni Müsavat”ın məlumatına görə, baş nazir əvəzi dünən İrəvanda bəyan edib ki, Ermənistan İranla Avrasiya Birliyi arasında etibarlı iqtisadi-ticari əlaqələrin qurulması üçün mühüm meydança olmağa hazırdır. “Ermənistan Avrasiya İqtisadi Birliyinin yeganə üzvüdür ki, İranla quru əlaqəyə, həmçinin azad ticari zonaya malikdir. Mehri iqtisadi-ticari əlaqələrin inkişafı üçün əlavə stimul yaradır” - Paşinyan vurğulayıb.

Beləcə, Paşinyan hökuməti bir tərəfində ABŞ-ın özünə 3 təhlükədən ikisi saydığı Rusiya və İranı, o biri tərəfində isə ABŞ-ı tutub saxlamaq istəyir, eyni vaxtda onların hər üçünün siyasi və başqa dəstəyinə nail olmağa çalışır. Bu isə canavarın vegeterian olması qədər qeyri-mümkün məsələdir. Bunu iki gün sonra Con Bolton İrəvanda ermənilərə açıq mətnlə anladacaq...

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin və jurnalist təşkilatlarının təmsilçiləri oktyabrın 17-dən 20-dək Gürcüstan Respublikasının paytaxtı Tiflis şəhərində işgüzar səfərdə olublar. Musavat.com xəbər verir ki, bu barədə KİV DF mətbuat xidməti xüsusi məlumat yayıb.**



# Azərbaycanın media təmsilçilərinin Gürcüstan səfəri uğurlu nəticələrlə yekunlaşıb

## Redaktorlar məzarları qonşu ölkədə olan Cümhuriyyət yaradıcılarının dövlətçilik fəaliyyəti və zəngin ideya irsi ilə yaxından tanış olublar, habelə bu ölkənin kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlığı müzakirə ediblər

Məlumatda vurğulanır ki, fondun "Azərbaycan Xalq Cümhuriyyəti ili» ilə bağlı hazırladığı Tədbirlər Planı çərçivəsində gerçəkləşən səfər media nümayəndələrini Cümhuriyyət yaradıcılarının dövlətçilik fəaliyyəti və zəngin ideya irsi ilə yaxından tanış etmək, habelə bu ölkənin kütləvi informasiya vasitələri ilə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək məqsədi daşıyıb.

Səfərdə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Cəmaləddin Quliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, "Ədalət" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Aqil Abbas, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev, "Bizim Yol" qəzetinin baş redaktoru Bahəddin Həziyev, "Trend" İnformasiya Agentliyinin baş direktor müavini Arzu Nağıyev, Fondun Müşahidə Şurasının üzvü Əvəz Rüstəmov, habelə aparıcı məsləhətçiləri Samir Mustafayev və Mirsəid Ağayev iştirak ediblər.











Səfərin ilk günü - oktyabrın 18-də media təmsilçiləri və Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Dursun Həsənov Tiflis şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Parkında ümummilli lider Heydər Əliyevin abidəsini ehtiramla ziyarət edib, önünə çiçək dəstələri düzüblər.

Media təmsilçiləri sonra Tiflisdəki Botanika bağına gələrək köhnə müsəlman qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olmuş Həsən bəy Ağayevin, Fətəli Xan Xoyskinin, eləcə də görkəmli dramaturq Mirzə Fətəli Axundzadənin məzarlarını ziyarət ediblər.

Səfər çərçivəsində media nümayəndələri daha sonra Tiflis şəhərində 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin "İstiqlal Bəyannaməsi"nin elan edildiyi tarixi bina ilə tanış olublar. Azərbaycanlı jurnalistlərə məlumat verilib ki, Gürcüstan dövlətinin və Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal bəyannamələrinin elan edildiyi tarixi bina çar Rusiyası dövründə Qafqaz canişinliyinə məxsus olub və hazırda "Gənclər evi" kimi fəaliyyət göstərir.

Bildirilib ki, 1918-ci il fevralın 23-də binada Gürcüstan, Azərbaycan və Ermənistan təmsilçilərindən ibarət Zaqafqaziya Seymi çağırılıb. Seymdə müsəlmanlar say etibarilə üstünlük təşkil ediblər. Həmin dövrdə müsəlman fraksiyasının 44, Gürcüstan sosial demokratlarının 32, ermənilərin isə 27 üzvü Seymdə təmsil olunub. Qeyd olunub ki, Gürcüstan 1918-ci il mayın 26-da Zaqafqaziya Seymindən çıxdığını bəyan edib və bununla da Seym buraxılıb. Mayın 27-də Seymin azərbaycanlı nümayəndələri müvəqqəti Milli Şuranın yaradıldığını elan ediblər və şuraya sədrlik Məhəmməd Əmin Rəsulzadəyə həvalə olunub. Bir gün sonra Milli Şuranın 26 üzvünün iştirak etdiyi ilk iclasda İlstiqlal Bəyannaməsi» qəbul olunub. Beləliklə, 1918-ci il mayın 28-də Tiflisin mərkəzində yerləşən bu tarixi binada Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması rəsmən elan edilib. Yeni yaranmış hökumət və Milli Şura iyunun 16-dək, yəni Gəncəyə köçürülənədək həmin binada fəaliyyət göstərib.

Azərbaycan nümayəndə heyətinin üzvləri bina ilə yaxından tanış olublar. Media təmsilçiləri bir vaxtlar gərgin müzakirələrin aparıldığı "Güzgülü salon"da, sənədlərin imzalandığı "Ağ salon"da və qərarların oxunduğu, iclasların keçirildiyi "Qırmızı salon"da olub, binanın bağçasında xatirə fotosu çəkdiriblər.

Həmin gün Azərbaycanın media təmsilçiləri və Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Dursun Həsənov Gürcüstan parlamentində olublar. Fondun icraçı direktoru Vüqar Səfərli, eləcə də Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov Azərbaycanın media nümayəndələrinin Tiflis səfərinin məqsədi barədə məlumat veriblər.

Fondun icraçı direktoru Vüqar Səfərli iki strateji tərəfdaş ölkə arasında əlaqələrin daha da möhkəmlənməsində kütləvi informasiya vasitələrinin rolunu xüsusi qeyd edib. İcraçı direktor hər iki ölkənin media nümayəndələri arasında birbaşa əlaqələrin yaradılması, informasiya mübadiləsinin təmin edilməsi üçün qarşılıqlı səfərlərin və tədbirlərin təşkilinin vacibliyini bildirib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov isə ikitərəfli əlaqələrin dinamik inkişafında parlamentlərin rolunu xüsusi vurğulayaraq beynəlxalq tədbirlərdə hər iki ölkənin parlamentarlarının taleyüklü məsələlərdə eyni mövqedən çıxış etmələrini yüksək qiymətləndirib.

Gürcüstanın GUAM Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, Gürcüstan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvü Giorgi Mosidze bildirib ki, ölkəsi Azərbaycanla əlaqələrin bütün sahələrdə inkişafında maraqlıdır. O, deputatların və KİV nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili və intensivləşdirilməsi üçün səylərini artıracağını bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Oktyabrın 19-da media təmsilçiləri səfərin təşkilinə hərtərəfli dəstək verən Azərbaycanın Gürcüstandakı səfirliyində olublar. Qonaqlar əvvəlcə səfirliyin binasında yaradılmış iş şəraiti ilə yaxından tanış olublar.

**Səfir Dursun Həsənov qonaqları səmimi salamlayaraq onlara səfirliyin diplomatik missiyası, habelə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətləri barədə ətraflı məlumat verib. Diplomat Azərbaycanın Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında ilk yerlərdən birini tutduğunu xüsusi diqqətə çatdırıb. Azərbaycan dövlətinin bu ölkədə yaşayan soydaşlarımıza hər cür qayğı göstərdiyini xüsusi qeyd edən səfir Dursun Həsənov deyib:** "Gürcüstanın ali məktəblərində təhsil alan yerli tələbələrin əksəriyyətinin təhsil haqqı Azərbaycan dövləti tərəfindən ödənilir. Azərbaycan Təhsil Nazirliyi Gürcüstandakı Azərbaycan dilli məktəblərin dərslik problemlərinin həlli məqsədilə bu ölkəyə hər il minlərlə dərs vəsaiti göndərir. Azərbaycan dövlətinin dəstəyi ilə Gürcüstanda bir neçə məktəb tikilib, onlarla məktəb əsaslı təmir olunaraq soydaşlarımızın ixtiyarına verilib. Gürcüstanda fəaliyyət göstərən Azərbaycan şirkətlərində minlərlə soydaşımız işlə təmin olunub".

Fondun icraçı direktoru Vüqar Səfərli öz növbəsində Azərbaycan jurnalistlərinin Gürcüstana səfərinin məqsədi barədə məlumat verib, habelə səfərin təşkilinə verdiyi dəstəyə görə səfir Dursun Həsənova və səfirliyin əməkdaşlarına təşəkkürünü bildirib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov və səfirliyin birinci katibi Vüqar Mustafayev çıxış edərək Gürcüstandakı soydaşlarımızı narahat edən bəzi məsələlərin - xüsusilə də Azərbaycan dilində məktəblərin sayının azalması və müəllim kadrların hazırlığı sahəsində bəzi problemlərin olduğunu vurğulayıblar. Görüşdə lYeni Azərbaycan» qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Trend" İnformasiya Agentliyinin baş direktor müavini Arzu Nağıyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli çıxış edərək səfirliyin Gürcüstandakı soydaşlarımızın problemlərinə göstərdiyi diqqət və qayğını yüksək dəyərləndiriblər. Media nümayəndələri səfirliklə ölkənin aparıcı KİV-ləri arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli təkliflər səsləndiriblər.

Görüşün sonunda icraçı direktor Vüqar Səfərli fondun xatirə hədiyyəsini səfir Dursun Həsənova təqdim edərək Azərbaycanın Gürcüstandakı səfirliyi ilə ölkənin aparıcı media qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün bundan sonra da bütün zəruri tədbirlərin həyata keçiriləcəyini vurğulayıb.

Azərbaycanın media təmsilçiləri daha sonra Tiflisdəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyini ziyarət ediblər. Muzeyin direktoru Leyla Əliyeva qonaqlara muzeyin fəaliyyəti, habelə burada nümayiş olunan sənəd və eksponatlar barədə məlumat verib. Muzeylə tanışlıqdan sonra media təmsilçiləri Tiflis şəhərinin azərbaycanlı və gürcü icmalarının nümayəndələri, habelə tanınmış politoloq və jurnalistlərlə görüşüblər.

Fondun icraçı direktoru Vüqar Səfərli qonaqlara səfərin məqsədi barədə məlumat verərək hər iki ölkənin media qurumları arasındakı əlaqələrin, habelə informasiya mübadiləsinin genişləndirilməsi zəruriliyini diqqətə çəkib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov, Gürcüstan Ağsaqqallar Şurasının sədri İsaq Novruzov, hüquqşünas Fərhad Musayev çıxış edərək Gürcüstan-Azərbaycan münasibətlərinin bütün sahələrdə dinamik inkişaf etdiyini bildirib, habelə soydaşlarımızı qayğılandıran məsələlərlə bağlı fikir və rəylərini bölüşüblər. Müzakirələr zamanı Gürcüstanın və Azərbaycanın media qurumları arasındakı əməkdaşlığın gələcək perspektivlərinə toxunulub.

Gürcüstan Demokratik Hərəkatının təmsilçisi, politoloq Levon Çixeidze, Gürcüstan Strateji Araşdırmalar İnstitutunun siyasi məsləhətçisi Gela Vasadze, Gürcüstan-Azərbaycan ictimai və mədəni əlaqələr fondunun rəhbəri Tengiz Txilava, politoloq Simon Kopadze və başqaları Azərbaycanla Gürcüstan arasında ictimai-siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər. Gürcüstanı təmsil edən politoloqlar ölkələrimizin etnik separatçılıq zəminində 20 faiz torpaqlarının işğal altında olduğunu xatırladaraq milli həqiqətlərin dünyaya çatdırılması üçün birgə səylərin gücləndirilməsi vacibliyini vurğulayıblar.

Görüşün sonunda fondun icraçı direktoru Vüqar Səfərli Tiflisdəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinə fondun xatirə hədiyyəsini təqdim edib.

Gürcüstanda səfərdə olan media təmsilçilərinin oktyabrın 19-da Marneuli rayonunda yaşayan soydaşlarımızla görüşü də maraqlı müzakirələrlə yaddaqalan olub. Fondun icraçı direktoru Vüqar Səfərli soydaşlarımızı salamlayaraq bu ilin may ayında Azərbaycan və Gürcüstanda ilk demokratik respublikanın yaranmasının 100-cü ildönümünün tamam olduğunu xatırladıb. İcraçı direktor bu səfərin də məhz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar hazırlanmış Tədbirlər Planı çərçivəsində reallaşdırıldığını söyləyib.

Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov isə bildirib ki, Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımızın qayğıları ilə hər zaman yaxından maraqlanır və həllinə dəstək verir. O bildirib ki, görüşün azərbaycanlıların yığcam yaşadıqları Marneulidə kecirilməsində məqsəd həm də soydaşlarımızın problemləri ilə yaxından maraqlanmaqdır.

Marneulidə yaşayan azərbaycanlılar tədbirdə çıxış edərək Azərbaycan dilində orta məktəblərin sayının ildən-ilə azalması, dərsliklərin çatışmazlığı, ixtisaslı pedaqoqların azlığı kimi çətinliklərlə üzləşdiklərini vurğulayıblar. Fondun icraçı direktoru Vüqar Səfərli və Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov imkan daxilində bu problemləri Azərbaycanın aidiyyəti dövlət strukturlarının diqqətinə çatdıracaqlarını vurğulayıblar.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Cəmaləddin Quliyev, Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev və başqaları soydaşlarımızın qaldırdıqları məsələlərə münasibət bildiriblər. Diqqətə çatdırılıb ki, Gürcüstan hökuməti bu ölkədə yaşayan soydaşlarımızın problemlərinə diqqətlə yanaşır, onların həllinə çalışır. Azərbaycan dövləti də qarşılıqlı dostluq və əməkdaşlıq şəraitində soydaşlarımızın problemlərinin həllində öz köməyini əsirgəmir. Vurğulanıb ki, Azərbaycan dövlətinin bu qayğısı davamlı xarakter daşıyır və soydaşlarımızın cəmiyyətə fəal inteqrasiya prosesinə bundan sonra da kömək göstəriləcək.

Səfərin üçüncü günü - oktyabrın 20-də Azərbaycanın media təmsilçiləri Tiflis şəhərində görkəmli ictimai-siyasi xadim, yazıçı Nəriman Nərimanovun ev-muzeyini ziyarət ediblər. Qonaqlara muzeydə nümayiş olunan eksponatlar, əşya və sənədlər barədə ətraflı məlumat verilib.

Günün ikinci yarısında media təmsilçiləri sərbəst qrafik əsasında Tiflis şəhərinin tarixi mədəniyyət abidələri və digər görməli yerləri ilə tanış olublar. Bununla da nümayəndə heyətinin Gürcüstan səfəri başa çatıb.

❑ Musavat.com

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

**ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun Bakıya səfəri ərəfəsində ABŞ-ın "Amnesty İnternational" hüquq müdafiə təşkilatı onu Azərbaycan hakimiyyətindən insan hüquqlarının pozulmasına son qoyulmasını tələb etməyə çağırıb. "Turan" agentliyinin xəbərinə görə, təşkilatın müraciətində Bolton Azərbaycan iqtidarına təzyiq etməyə çağırılır.**

# "Amnesty İnternational"dan Boltona "Bakıya təzyiq edin" çağırışı

## Yeganə Hacıyeva: "Bu, qurumun nizamnaməsinin, prosedur etikası normalarının pozulmasıdır..."

Qurumun rəsmi müraciətində Boltona tövsiyə edilələr ki, Azərbaycan rəhbərliyi ilə müzakirələr zamanı jurnalist Əfqan Muxtarlının dərhal və qeyd-şərtsiz azadlığa buraxılması, öz işindən kənarlaşdırılan vəkillərin hüquqlarının bərpası, ABŞ hökuməti ilə Azərbaycan hökuməti arasında insan hüquqları üzrə dialoqun bərpası məsələsi qoyulsun.

Bəs ABŞ kimi nəhəng dövlətin prezidentinin təhlükəsizlik məsələləri üzrə müşavirinin belə bir müraciətə əməl edəcəyi mümkünmü?

**Siyasi ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, "Amnesty İnternational"ın bu müraciətinin mətni əcaibdir:** "Müraciətin mətnini oxuyarkən



aydın olur ki, qurum yüksək ranqlı ABŞ məmurundan səfər etdiyi ölkədə diplomatik etika və səlahiyyətlərdən kənara çıxaraq, hər hansı bir mövzu ətrafında müzakirələrdə yerli hakimiyyətlərə təzyiq etməyi tələb edir. Beynəlxalq insan haqları institutları öz fəaliyyət və məramlarında fundamental azadlıqların təmin olunmasında baza sənədi olan "Paris prinsipləri" adlandırdığımız prinsiplərə əsaslanır. "Amnesty International"ın ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşavirini səfər etdiyi ölkədə yerli hakimiyyətlərə təzyiq çağırışı bu qurumun formalaşmasında əsas olan nizamnamənin, prosedur etikası normalarının pozulmasıdır. Məhz bu kimi halların mövcudluğu ABŞ-ın belə təşkilatları birləşdirən BMT-nin Beynəlxalq İnsan Haqları Şurasından çıxmasına təkan verib. Sırf bu məqamlara görə, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun Bakı səfərində danışıqlarda insan hüquqları mövzusuna toxunulmayacağına əminəm".

**Y.Hacıyeva onu da dedi ki, müasir dövrümüzdə beynəlxalq münasibətlərdə, beynəlxalq təşkilatlarda insan haqları təşkilatları və bu təşkilatların dünya siyasətində rolu, mövqeyi ətrafında narahatlıq yaşanmaqdadır:** "Biz zaman-zaman belə narahatlıqların bu və ya digər ölkələrin rəsmilərinin səsləndirilməsinin şahidi oluruq. Buna misal olaraq, ABŞ-ın BMT-dəki keçmiş səfirinin, Beynəlxalq İnsan Haqları Şurası haqqında fikirlərini göstərmək istəyirəm. ABŞ-ın BMT-dəki keçmiş səfiri Nikki Haley Beynəlxalq İnsan Haqları Şurasını riyakarlıqda günahlandıraraq, qurumu dünyada sülhə, ədalətə və ya insan haqlarının qorunmasına deyil, ancaq özünə xidmət edən qurum adlandırmış və bu üzdən ABŞ Beynəlxalq İnsan Haqları Şurasından çıxmaq qərarını ifadə etmişdi. Bu müraciət "Amnesty International"ın ölkəmizə yönəlik nə ilk, nə də sonuncu riyakar yanaşması deyil. Azərbaycan zaman-zaman müxtəlif siyasi və iqtisadi lobbi qruplarından maliyyələşən, bu maraqlara xidmət edən beynəlxalq insan haqları təşkilatlarının daim hədəfindədir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Ermənistan hökuməti hər an sürprizlə üzləşə bilər

## İşğalçı ölkədə tufanqabağı sakitlik hökm sürür; Paşinyan əleyhidarları fürsət gözləyir; **politoloq:** "İndi o, həm qapıçı və müdafiəçi, həm də yarımmüdafiəçi və hücumçudur..."

**Ermənistan parlamentində növbədənkənar parlament seçkilərinə hazırlıq məqsədilə hazırlanmış seçki məcəlləsini 72 saat ərzində müzakirə etmək barədə təklif qəbul edilməyib. Ədliyyə naziri Artak Zeynalyanın verdiyi təklifə əsasən, qanuna dəyişiklik iki oxunuşda 72 saat ərzində qəbul edilməli idi.**

Dəyişikliklər proporsional seçki sisteminə keçid, partiyalar üçün seçki baryerinin 5%-dən 4%-ə, bloklar üçün isə 7%-dən 6%-ə endirilməsini nəzərdə tutur. Eyni zamanda koalisiya qurmaq üçün müddət 6 gündən 10-a qədər artırılır. Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, ölkədə parlament seçkilərinin dekabrın 9-10-u tarixlərində keçirilməsi təklif olunur.

Ötən bazar Ermənistanın daha 4 şəhərində bələdiyyə seçkiləri keçirilib. Musavat.com xəbər verir ki, son açıqlanan nəticələrə görə, Razdan şəhərinin meri vəzifəsinə Sevak Mikaelyan seçilib. Sevak Mikaelyan Paşinyanın hazırda tərkibində olduğu, lakin qarşıdan gələn seçkilərdə bir yerdə iştirak etmək istəmədiyi "Yelk" frarksiyasının üzvü Sasun Mikaelyanın oğludur. Armavir şəhərində isə "Vətəndaş müqaviləsi" partiyasının (Paşinyanın öz partiyası - red.) nümayəndəsi David Xudatyan qalib gəlib. Eçmiədzində də eyni partiyanın üzvü Diana Qasparyan seçkiləri qazanıb.

"Vətəndaş müqaviləsi" partiyası Qafan şəhərində məğlub olub. Burada iqtidar nümayəndəsi Narek Babayan 2 min səs çoxluğu ilə rəqibi, partiyasız Gevork Parsyana uduzub. Erməni ekspertlərin fikrincə, Qafandakı məğlubiyyət Ermənistandakı inqilabi eyforiyanın yatdığına və insanların gerçək həyata geri döndüyünə



Arzu Nağıyev

bir işarədir. Məsələ burasındadır ki, seçkilərdən bir neçə gün əvvəl Paşinyanın şəxsən özü Qafana gəlib və burada istədiyi namizədin təbliğatını aparıb. "Artıq inqilabın təsirlərinin tədricən azaldığını, Paşinyan hakimiyyətinin cəmiyyəti "ağlar və qaralar"a bölmək, habelə insanları Robert Köçəryan və Serj Sərkisyan faktorları ilə qorxutmaq tezislərinin işləmədiyi aydın görünür", - erməni analitik Sərkis Arsruni yazır.

Müəllif Qafandakı məğlubiyyətin şəhər əhalisinin Nikol Paşinyanın Sünik vilayətinin qubernatorluğuna keçmiş polis Unan Poqosyanı təyin etməsinə orijinal cavabı olduğunu vurğulayır. "Bununla Nikol Paşinyanın "barrikadaları sökmək" siyasətinin iflas etdiyini görmək olar. Paşinyan sərt siyasi kursu uğursuz kadrların təyinatı ilə qarışdırmaqla böyük səhvə yol verdi" - erməni icmalçı yazır.

Ermənistan politoloqlarının rəyinə görə, bələdiyyə seçkiləri parlament seçkilərində hamının düşündüyü kimi, hazırkı baş nazirin şərtsiz qalibiyyəti ilə nəticələnəcəyi tezisini də şübhə altına qoyur.

Belə görünür ki, Ermənistanın baş nazir əvəzi Nikol Paşinyan müxalifəti seçkidə iştiraka razı salmaqla heç də bütün maneələri dəf edə bilməyib. İlk baxışda Paşinyanın Rusiya ilə münasibətlərini normallaşdırdığı görünsə də, onun hər an sürprizlə üzləşə biləcəyini demək mümkündür. Elə Paşinyanın yeri gəldi-gəlmədi Dağlıq Qarabağ məsələsi ilə bağlı kəskin mövqe sərgiləməsi də seçkilərdə üzləşə biləcəyi təhlükələri neytrallaşdırmaqla daha çox bağlıdır. Erməni ekspertlərin şərhləri də bunu təsdiqləyir.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda Ermənistanda seçki kodeksinə dəyişikliklərlə bağlı parlament müzakirələri aparılır:** "Burada da bir sıra narazılıqlar var, əsas narazılar da daşnaklardır. Onlar tam şəkildə belə bir seçkilərin erkən keçirilməsinə narazılıq edirlər. Paşinyan hazırda bir neçə istiqamətdə siyasi gedişlər edir. Bu, əsasən diaspora siyasəti, bir sıra şəhərlərdə özünə loyal olan qüvvələrdən mer seçkiləri, polislərin Ermənistan-Azərbaycan sərhədinə getməkdən imtina etmələri ilə bağlı yaranmış gərginliyin aradan qaldırılmasıdır. Yeni Paşinyan baş nazir vəzifəsinin içraçısıdır və hətta bəzi siyasətçilər onu futbol komandası ilə müqayisə edirlər ki, Paşinyan həm qapıçı, həm müdafiəçi, yarımmüdafiəçi və hücumçu rollarını da oynamağa çalışır. Bir sıra rayonlarda artıq onun tərəfdarları mer seçildilər, bu da ona seçki üçün çox mühüm əhəmiyyət kəsb edir. Paşinyanın diaspora vəsaitinin əsas hissəsini öz əlində cəmləşdirən Beynəlxalq Erməni Fondu ilə bağlı bir sıra çətinlikləri mövcuddur və hələ ki ortaq məxrəcə gələ bilmirlər. Çünki vəsaitlərin xərclənmə mexanizmi şəffaf deyil və diaspora bu vəsaitlərin seçkiyə xərclənəcəyindən ehtiyat edir. Ermənistan polisi də sərhədə getməkdən imtina edir və bu da daxili siyasi vəziyyətə təsir edən ən mühüm amilə çevrilə bilər. Bu da Paşinyana hazırda lazım deyil. Paşinyanı eyni zamanda Köçəryanın mövqeyi də narahat edir və bu da siyasi gərginlik yaradan amillərdəndir".

**Bütün bunlar isə o anlamı verir ki, Paşinyan hökuməti hər an sürprizlərlə üzləşə bilər. Kəsəsi, ölkədə tufanqabağı sakitlik hökm sürür. Çünki Paşinyan əleyhidarları fürsət gözləyir...**

❑ **Cavid TURAN, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Dağlıq Qarabağ konfliktinin nizamlanması üçün qiymətli daha bir il başa çatmaq üzrədir. Problemin dinc həllində nə vaxt diplomatik sıçrayışın ediləcəyi isə hələlik bilinmir. Hələ ki işğalçı Ermənistan növbədənkənar parlament seçkilərinə hazırlaşır. Münaqişənin əsas körükçüsü Rusiya öz növbəsində problemin yoluna qoyulmasına həmişəki kimi həvəs göstərmir, status-kvo onu tam qane edir, çünki həm Azərbaycan, həm də Ermənistan belədə onun orbitindən uzağa gedə bilmir.**





# Qarabağda son sözü ordumuz, yoxsa diplomatiya deyəcək?

Vasitəçi dövlətlərin passivliyi müharibə variantını qaçılmaz edir; Bakı "addım-addım" taktikası ilə də işğalçını sülhə vadar edə bilər; **rusiyalı hərbi ekspert:** "Azərbaycan ordusu postsovet məkanında və Xəzər regionunda ən yaxşı ordulardandır..."

ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri Ceyms Uorlikə inansaq, ABŞ-ın indiki rəhbərliyi də Qarabağ hayında deyil. Üstəlik, Vaşinqton-Moskva münasibətləri getdikcə daha gərgin çalar almaqdadır. Hərçənd tanınmış azərbaycanlı politoloq Eldar Namazov "Yeni Müsavat"a açıqlamasında əminliklə bildirib ki, Vaşinqtonun Dağlıq Qarabağla bağlı hansısa planı var. "Əks halda, prezident Donald Tramp Azərbaycan prezidenti İlham Əliyevə və Ermənistanın baş naziri Nikol Paşinyana bu barədə açıq yazmazdı", - deyə o qeyd edib.

Politoloq onu da deyib ki, Qarabağ məsələsində son sözü diplomatiyamız yox, məhz ordumuz deyəcək. Əlbəttə, bu, heç də o anlama gəlmir ki, böyük müharibə qaçılmazdır. Böyük müharibəyə yəqin ki, böyük güclər - Rusiya və ABŞ mane olacaq. Ancaq Bakı torpaqları "addım-addım" azad etmək taktikası yürüdüb lokal hərbi əməliyyatlarla, işğalçını get-gedə daha böyük itkilərə məruz qoymaqla da onu sülhə vadar edə bilər. Başqa sözlə, söhbət əzici hərbi güclə təhdiddən gedir. Aydın məsələdir ki, hərbi qüdrətimizə əmin olan düşmən danışıqlar masası arxasında daha üzüyola davranış göstərəcək.

*****

Şübhəsiz, Azərbaycan həm də əlverişli fürsəti gözləyir ki, torpaqları maksimum qısa zamanda antiterror əməliyyatı ilə azad eləsin. Bundan ötrü ölkəmizin silahlı qüvvələrinin döyüş hazırlığı və təchizatı mühüm önəm kəsb edir. Bakı bu istiqamətə məxsusi diqqət ayırır. Hər il büdcənin böyük bir hissəsi ən müasir silah-sursatın alınması və yerli hərbi sənayenin inkişafına yönəldilir.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Avropa Birliyinin üzvü olan Çex Respublikasına təzəcə başa çatan səfəri də eyni məqsədə xidmət edir. Bununla Azərbaycan bir daha təcavüzkar tərəfə mesaj verir ki, o, sonsuzadək öz ərazilərinin işğal altında qalmasına dözmək, nəticəsi olmayan danışıqları davam etdirmək niyyətində deyil.

**Bu xüsusda rusiyalı hərbi ekspert, Dünya Silah Ticarəti üzrə təhlil mərkəzinin rəhbəri İqor Korotçenkonun fikirləri diqqətçəkicidir. "Yeni Müsavat"ın məlumatına görə, ekspert deyib ki, bu gün Azərbaycan ordusu postsovet məkanında və Xəzər regionunda ən yaxşı ordulardan biridir.**

"Azərbaycan çox böyük potensialı olan ölkədir. Eyni zamanda, özünü bu gün müstəqil apara bilən azsaylı dövlətlərdəndir. Hətta Səudiyyə Ərəbistanı da Azərbaycan kimi özünə belə müstəqil siyasəti rəva görə bilməz... İstənilən ordunun potensialını iki amil müəyyən edir - yüksək döyüş ruhu və müasir silahlar. Onların hər ikisi Azərbaycanın silahlı qüvvələrində var", - deyə rusiyalı analitik əlavə edib.

Bundan başqa, bəllidir ki, ordumuz dünyanın 50 ən güclü orduları sırasında yer alıb. Söz yox ki, ordunun gücünü həm də ölkənin iqtisadi göstəriciləri və əhali (kişi) sayı da müəyyən edir. Azərbaycan bu iki göstərici üzrə də işğalçı ölkəni dəfələrlə üstələyir. Bütün bu faktorları, əzici üstünlüyü isə düşmən ordusu 2016-cı ilin aprelində öz üzərində hiss edib, əyani görüb. O vaxt Rusiya mane olmasaydı, əksər hərbi ekspertlər əmin idilər ki, Azərbaycan ordusu qısa müddətdə daha da irəli gedib qat-qat böyük ərazini azad edə bilərdi.

*****

Dağlıq Qarabağ probleminin həllində ən böyük əngəl də məhz Rusiya amili olaraq qalır. Çünki işğalçı Ermənistan məhz Moskvaya güvənərək, cəzasızlığına əmin olaraq, maksimalist mövqe tutur, sülh danışıqlarını torpedalayır. Lakin artıq Moskvada da, İrəvanda da anlamağa başlayıblar ki, "nə hərb, nə sülh" vəziyyəti uzun sürə bilməz. Hər şeyin bir sonu gəldiyi kimi, atəşkəsin də sonu gələcək. Bu sonluq isə iki cür ola bilər - böyük sülh sazişi, ya da böyük müharibə. Seçimi Ermənistan edəcək. Çünki Azərbaycanın güzəştə gedəsi heç nəyi yoxdur.

Bəzi şərhçilərə görə, Ermənistanda dekabr seçkilərindən sonra Qarabağ danışıqlarında canlanma yarana bilər. Onların fikrincə, hər necə olmasa, Ermənistanda artıq Qarabağ klanı hakimiyyətdə deyil və bu, iqtidardakı yeni qüvvələrə Bakı ilə hansısa anlaşmaya getmək şansı yaradır. Bu xüsusda Düşənbədə Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan baş naziri (hazırda baş nazir əvəzi) Nikol Paşinyan arasında əldə edilən ilkin anlaşma da təsadüfi hesab edilmir.

*****

**"Dekabr ayında Ermənistanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Nikol Paşinyanın gözlənilməz seçki qərarı dolayısı ilə Dağlıq Qarabağ münaqişəsinə bağlıdır". Bu barədə erməni politoloq Armen Sarkisyan deyib (publika.az). O, Düşənbədə Azərbaycan prezidenti və Ermənistanın baş nazirinin görüşünü xatırladıb və qeyd edib ki, Bakı Paşinyanın "danışıqlarda Dağlıq Qarabağın iştirakı" iddiasından əl çəkməsi qarşılığında bu razılaşmaya gedib.**

"Paşinyan Düşənbədən qayıdandan sonra təcili şəkildə parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar qəbul etdi. Bu fakt onu deməyə əsas verir ki, növbədənkənar parlament seçkilərinin keçirilməsi haqqında tələsik qərar Qarabağ problemi üzərində hansısa planla bağlıdır. Bu, Azərbaycanın istəyinə uyğun kimi görünür. Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayaraq bildirdi ki, "Ermənistanda növbədənkənar parlament seçkilərindən sonra yeni hökumətin işğal altındakı ərazilərdən erməni hərbi birləşmələrinin çıxarılması ehtiyacını anlayacağına ümid edirik. Digər tərəfdən, son zamanlar Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müəyyən intriqa nəzərə çarpır. Birincisi, ABŞ prezidenti Donald Tramp müstəqillik günü ilə bağlı Ermənistanın baş nazirinə göndərdiyi təbrik məktubunda qeyd etdi ki, "qarşıdakı aylarda Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün yeni imkanlar yaranacaq". İkincisi, bu günlərdə ABŞ dövlət katibinin Avropa və Asiya məsələləri üzrə köməkçisi Corc Kent Bakıda bəyan etdi ki, "Nyu-Yorkda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin, həmçinin Düşənbədə Azərbaycan prezidenti və Ermənistanın baş nazirinin görüşü son zamanlar Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində irəliləyişlərin olduğuna işarədir". Kent əlavə etdi ki, ABŞ münaqişənin Madrid prinsipləri üzrə nizama salınmasında öz öhdəliklərinə sadiqdir. Göründüyü kimi, bu bəyanatlar ABŞ-ın regionda aktivləşməsinin sübutudur. Buna paralel olaraq, Rusiya KİV-i postsovet məkanında münaqişələrin nizama salınması mövzusunu aktuallaşdırdı. Hətta Rusiya müdafiə naziri Sergey Şoyqunun münaqişələrin nizama salınması ilə maraqlandığı haqqında xəbərlər çıxdı. Məhz Şoyqu Azərbaycan və Ermənistanı barışdırmaq niyyətindədir".

Erməni politoloq hesab edir ki, ABŞ-ın Cənubi Qafqaz, xüsusilə Dağlıq Qarabağ münaqişəsi üzrə siyasəti yaxın gələcəkdə özünü açıq şəkildə ifadə edəcək. "ABŞ hələ ki "Ərazilərin müəyyən hissəsinin azad edilməsi olmadan münaqişənin həll edilməsi mümkün deyil" tezisi üzərindən çıxış edir. Mümkündür ki, Ermənistanda növbədənkənar parlament seçkilərindən sonra planlar ortaya çıxacaq", - deyə o, əlavə edib.

*****

Bunlar əlbəttə ki, ehtimallardır. Çox şey yəqin ki, Moskvanın Dağlıq Qarabağ probleminin həllinə nə dərəcədə təkan verəcəyindən asılı olacaq. İkinci yandan, ABŞ-ın Qarabağla planları ilə Rusiyanın planlarının üst-üstə düşüb-düşməyəcəyi, onların məsələdə əməkdaşlıq edib-etməyəcəyi də az əhəmiyyət kəsb eləmir. Çünki hər iki fövqəldövlət sözsüz ki, konfliktin həllinə ilk növbədə regionda möhkəmlənmək vasitəsi kimi baxır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

# Azərbaycana ən çox kredit verən təşkilatlar

## Dünya Bankı, Avropa və Asiya bankları...

**Azərbaycan çoxsaylı xarici maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq edir. Müstəqilliyimizin ilk illərindən başlayan əməkdaşlıq çərçivəsində həmin təşkilatlar Azərbaycana çoxsaylı və böyük həcmli kreditlər ayırıblar.**

Maliyyə Nazirliyinin məlumatına görə, 01 iyul 2018-ci il tarixinə Azərbaycan Respublikasının xarici dövlət borcu 9 milyard 600,2 milyon ABŞ dolları (16 milyard 320.3 milyon manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 21.9 faiz təşkil edib.

Qeyd edək ki, xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlərdən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir.

Azərbaycan ən çox krediti hansı təşkilatlardan alır, qısa nəzər yetirək

### Asiya İnkişaf Bankı ilə əməkdaşlıq

Oktyabrın 21-də prezident İlham Əliyev Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul edib. Görüş zamanı verilən məlumatdan aydın olur ki, Azərbaycan 1999-cu ildən bu bankla əməkdaşlığa başlayıb.

Ötən dövr ərzində Asiya İnkişaf Bankı tərəfindən Azərbaycana 4 milyard dollardan yuxarı kreditlər və maliyyə zəmanətləri verilib, bundan başqa, texniki dəstək göstərilib. AİB-in ayırdığı kreditlərin 1 milyard dollardan çoxu Cənub Qaz Dəhlizinə verilib.

Bununla yanaşı, bank tərəfindən bir sıra digər infrastruktur layihələrinə, o cümlədən elektrik enerjisi layihələrinə təqribən 250 milyon dollar, dəmir yolu layihələrinə 400 milyon dollar həcmində kreditlər ayrılıb. 2016-cı ildə makroiqtisadi sabitliyin dəstəklənməsi məqsədilə bankın qısa müddətdə ayırdığı 500 milyon dollar məbləğində kontrsiklik krediti ölkəmiz artıq bu il vaxtından xeyli əvvəl qaytarıb.

Azərbaycan Asiya İnkişaf Bankı ilə 2019-2023-cü illər üçün əməkdaşlıq strategiyası hazırlayır.

### Dünya Bankı bizə nə qədər kredit verib?

Azərbaycan 1992-ci ildən Dünya Bankı ilə əməkdaşlığa başlayıb. 25 ildən yuxarı tərəfdaşlıq müddəti ərzində bankın ölkəyə yatırdığı investisiyaların ümumi məbləği 50 layihə çərçivəsində 3,5 milyard dollardan artıq olub. Bu layihələr dövlət sektorunun idarəçiliyi, səhiyyə və təhsil sistemlərindən tutmuş maliyyə və infrastruktur kimi müxtəlif sektorları əhatə edir. Bankla əməkdaşlıq birgə strategiya olan Ölkə Tərəfdaşlıq Çərçivəsi (ÖTÇ) üzərində qurulur. Hazırkı ÖTÇ 2015-2020-ci illəri əhatə edir.

Hazırda Dünya Bankı Azərbaycanın dəmir yolu infrastrukturunun təkmilləşdirilməsinə və Azərbaycan Dəmir Yolları QSC-nin institusional potensialının müasirləşdirilməsinə yardım edir. Bank həmçinin 2001-ci ildən etibarən Azərbaycanın yol sektorunda müxtəlif layihələri maliyyələşdirir. Dünya Bankı tərəfindən Azərbaycanın nəqliyyat sektoruna 1,8 milyard dollardan artıq investisiya yatırılıb.

Böyük Bakının Su Təchizatı Sisteminin Yenidənqurulması Layihəsi bankın Azərbaycanda ilk layihələrindən idi. Çirkab sutəmizləyici qurğuların bərpası və şəbəkənin təmir olunması ilə bu layihə Bakının supaylayıcı sisteminin tamamilə çökməsinin qarşısını alıb. Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi yeni su və kanalizasiya şəbəkələrinin tikintisi, su və çirkab sutəmizləyici qurğuların inşası və bu sahədə kommunal xidmət müəssisələrinin maliyyə dayanıqlığının gücləndirilməsinə yardım edir. 1992-ci ildən etibarən bu sektora 700 milyon ABŞ dollarından artıq vəsait yatırılmışdır.

Bank Azərbaycan Dəmir Yolları QSC, Azərsu ASC və digər kommunal dövlət müəssisələri daxil olmaqla, onların Beynəlxalq Maliyyə Hesabatı Standartlarına (IFRS) uyğun avtomatlaşdırılmış mühasibat sisteminə keçidinə yardım edir.




Dünya Bankı Azərbaycanda nərə balığı kürüsünün istehsalı potensialının bərpası sahəsinə Xəzər regionunda ən iri və müasir balıqartırma zavodunun tikintisinə; Abşeron yarımadasında civə və neftlə çirklənmiş konkret sahələrin təmizlənməsinə, o cümlədən ətraf mühitin idarə olunması sahəsində Azərbaycanın tənzimləyici və institusional potensialının artırılmasına dəstək verib. Dünya Bankı Təhlükəli Tullantılar Poliqonunun tikintisini dəstəkləmişdir, bu poliqon Azərbaycanda yeganə belə müəssisədir və beynəlxalq standartlara tam cavab verir. Bank Bakının Balaxanı qəsəbəsində ən iri bərk məişət tullantıları ərazisinin təmizlənməsi layihəsini maliyyələşdirib.

### Avropa banklarından aldıqlarımız

Azərbaycan uzun illərdir Avropa Yenidənqurma və İnkişaf Bankı ilə də sıx əməkdaşlıq edir. Bu bankdan alınan kreditlərin həcmi 3 milyard dollara yaxındır.

2016-cı ildə Avropa Yenidənqurma və İnkişaf Bankı "Avtomobil yollarının təmiri və bərpası" layihəsi üzrə 500 milyon ABŞ dolları məbləğində kreditin ayrılması haqda Azərbaycan hökumətinin müraciətinə müsbət cavab verib. Bu vəsait Gəncə-Qazax-Gürcüstan dövlət sərhədi magistral avtomobil yolunun birinci kateqoriyaya çatdırılmasına, yəni əlavə iki zolağın tikilməsinə yönəldilir.

Qurum 2017-ci ildə Azərbaycanın dövlət və özəl sektorunda 9 layihənin reallaşdırılmasına 456 milyon avro kredit ayırıb. 2016-cı ildə isə bank respublikada 9 layihənin maliyyələşdirilməsinə 63 milyon avro kredit ayırıb.

AYİB-lə münasibətlərdə proses birtərəfli olmayıb. 2016-cı ildə Dövlət Neft Fondu bankın səhm fonduna 100 milyon avro həcmində kapital yatırıb.

2017-ci ildə AYİB tərəfindən Trans-Anadolu qaz kəmərinin (TANAP) tikintisi layihəsinin maliyyələşdirilməsinə 500 milyon dollar məbləğində kredit ayrılıb. 31 dekabr 2017-ci il tarixinə bankın Azərbaycanda 50 layihə üzrə cari portfeli 1 milyard 176 milyon avro məbləğində qiymətləndirilib. Bu vəsaitlərin 61 faizi energetika, 29 faizi infrastruktur, 6 faizi maliyyə, 4 faizi istehsala yönəldilib.

2016-cı ilin iyununda Azərbaycan 254.1 milyon ABŞ dolları (bankın kapitalının 0.2541 faizi) həcmində iştirak payı ilə Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) tamhüquqlu üzvü olub. Dekabrda isə bank 600 milyon dollarla TANAP layihəsinin maliyyələşdirilməsində iştirak qərarını təsdiqləyib.

Qeyd edək ki, son illərdə xaricdən kredit alınması prosesində artım qeydə alınıb. İqtisadiyyat Nazirliyinin yaydığı məlumata görə, yalnız 2016-cı il ərzində 14 beynəlxalq maliyyə institutu ilə əməkdaşlıq çərçivəsində toplam məbləği 8 milyard 762 milyon ABŞ dolları dəyərində 44 layihənin icrası davam etdirilib. Bunların 7-nin icrasına 2015-ci ildə başlanıb. Həmin layihələr üzrə cəlb olunan kreditin dəyəri 1,5 milyard dollara çatır.

1 yanvar 2018-ci ildə xarici dövlət borcu 9 milyard 398,3 milyon ABŞ dolları, onun ÜDM-ə nisbəti 22,8 faiz olub. Avqustda prezident tərəfindən təsdiqlənən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına əsasən xarici dövlət borcunun 3 milyard 331,4 milyon dolları və ya 35,5 faizi xarici valyuta nominallı dövlət qiymətli kağızlarından, 5 milyard 510,4 milyon dolları və ya 58,6 faizi hökumətin birbaşa cəlb etdiyi kreditlərdən, 556,5 milyon dolları və ya 5,9 faizi isə xarici dövlət borcu hesab edilən şərti öhdəliklərdən ibarətdir.

Azərbaycanın xarici dövlət borcunun 45,1 faizi 1 yanvar 2018-ci ildən sonra 10 ilə qədər olan müddətdə, 51,2 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 3,7 faizi isə 20 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Azərbaycanda həkimlər körpənin ürəyini dayandıraraq əməliyyat etdilər

**Azərbaycan Tibb Universitetində (ATU) anadangəlmə ürək qüsuru olan körpə əməliyyat olunub.**



ATU-nun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, əməliyyat Daun sindromlu, ürəyində 2 ədəd qulaqcıqarası çəpər defekti, 1 ədəd geniş mədəcikarası çəpər defekti olan 10 aylıq 7 kq çəkisi olan körpə üzərində aparılıb.

Əməliyyatı icra edən ATU-nun Tədris Cərrahiyyə Klinikasının uşaq ürək cərrahı Ramal Həsənov bildirib ki, bu qüsur hələ uşaq ana bətnindəykən ürək çəpərinin tam inkişaf etməməsi nəticəsində arakəsmənin açıq qalması səbəbindən yaranır: "Uşaq doğulduqdan sonra pediatrik kardioloqumuz doktor Elşən Rzayevin nəzarəti altında olub. Uşaq medikamentoz müalicə ilə 10 aya qədər təqibimizdə saxlandıqdan sonra artıq ürək boşluqlarında genişlənmənin başlanması, tənəffəslik və çəki ala bilməməsi səbəbindən əməliyyat qərarı verdik".

İki saat davam edən əməliyyat zamanı ürəyin sağ qulaqcığına və aortaya yerləşdirilən pediatrik kanyullar vasitəsilə bədəndəki bütün venoz qanı süni ürək-ağciyər aparatına verilib və oksigenlənmiş qan geri qaytarılıb. Uşağın bədən temperaturu 32 dərəcəyədək soyudulub, ürəyi dayandırılıb. Ürəyin sağ qulaqcığında kiçik bir kəsik edərək hər üç defekti buradan bioloji material vasitəsilə bərpa etdikdən sonra ürək yenidən çalışdırılıb. Uşaq süni ürək-ağciyər aparatından ayrılaraq əməliyyat başa çatdırılıb.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

**Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunda "Washington Post" qəzetinin müxbiri Camal Qaşıqçının başına gətirilən dəhşət dünyanın müzakirə mövzularından biridir. Hər keçən gün jurnalistin qətli ilə bağlı yeni versiyalar meydana çıxır.**



# Camal Qaşıqçının qətli ilə bağlı sensasion detallar

## **Politoloq:** "Bu cinayət Amerikanın Səudiyyə Ərəbistanına bir mesajı da ola bilər"

Jurnalistlə bağlı son məlumat isə daha dəhşətlidir. Adı açıqlanmayan Səudiyyə rəsmisi dünyanın gündəmini dəyişən qətllə bağlı "Reuters" agentliyinə ilginc açıqlamalar verib.

Mənbənin bildirdiyinə görə, Ər-Riyad hakimiyyətini sərt tənqid edən müxalif jurnalistin ölkəyə geri qaytarılması üçün İstanbula 15 nəfərlik nümayəndə heyəti göndərilib. Məqsəd onu öldürmək yox, ölkəyə qaytarmaq olub.

Aralarında kəşfiyyat xidmətinin və təhlükəsizlik qüvvələrinin əməkdaşları olan heyətə Qaşıqçını tutaraq bir müddət İstanbulda saxlamaq, daha sonra onu Səudiyyəyə gətirmək tapşırılıb.

Qaşıqçı sənəd almaq üçün getdiyi konsulluqda gözləmədiyi situasiya ilə qarşılaşıb. Onu konsulun otağına apararaq, dərhal Səudiyyəyə dönməsi tələb olunub. Jurnalist isə onu bayırda gözləyənin olduğunu, bir saat ərzində çıxmasa, Türkiyə hüquq-mühafizə orqanlarına məlumat veriləcəyini deyib.

"Mənə nə edəcəksiniz?, Qaçıracaqsınız məni?" - deyə Qaşıqçı qəzəbli şəkildə bildirib. Dərhal 15 nəfərlik heyət onu "sakitləşdirməyə" çalışıb. Bu məqamda dava düşüb. Nəticədə Qaşıqçı naməlum səbəbdən (?) həyatını itirib. Onun boğularaq öldürüldüyü iddia edilsə də, mənbə bu barədə fikir bildirməkdən yayınıb.

"Onu sakitləşdirmək üçün müdaxilə etdilər, amma öldü. Məqsəd onu öldürmək deyildi" - "Reuters"ə danışan mənbə deyib.

Məsələ ondadır ki, öləndən sonra Qaşıqçının meyitinin şaqqalandığı versiyası da gündəmdədir. Çünki hazırda onun meyiti ortada yoxdur.

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ prezidenti Donald Trampla telefon danışığında Qaşıqçının ölümünün bütün təfərrüatlarının açıqlanmasında israr edib. Ərdoğan yaxın vaxtlarda önəmli bəyanatla çıxış edəcəyini dilə gətirib:** "Biz ədalət axtarırıq və bu ədalət bütün çılpaqlığı ilə ortaya qoyulacaq. Bu qeyri-adi haldır. Mən çərşənbə axşamı Ədalət və İnkişaf Partiyasının toplantısında bununla bağlı bəyanat verəcəyəm".

Yaponiyanın xarici işlər naziri Taro Kono Qaşıqçının qətli barədə hərtərəfli araşdırılma aparılmasına çağırıb.

**Danimarkada səfərdə olan T.Kono hadisəni şərh edərkən bunları deyib:** "Bu böyük təəssüf hissi doğurur. Biz baş vermiş hadisənin hərtərəfli araşdırılmasına və ədalətli, aşkar cavab tədbirlərinin görülməsinə çağırırıq" - deyə bildirib.

Səudiyyəli jurnalistlə bağlı daha bir sensasion fakt üzə çıxıb. Qaşıqçını qətlə yetirən 15 nəfərlik sui-qəsdçi qrup izi itirmək üçün ağlagəlməz üsula əl atıb.

Musavat.com CNN-ə istinadən xəbər verir ki, həmin adamlardan biri Qaşıqçının paltarını öz əyninə keçirib və bir müddət şəhərdə dolaşıb.

Sui-qəsdçilərin bununla Qaşıqçının guya konsulluqdan çıxdığı görüntüsünü yaratmaq istədiyi bildirilir. Həmin adam yalançı saqqal və eynək taxaraq "Sultan Əhməd" məscidi tərəflərdə bir qədər dolaşıb.

Xəbərdə həmin adamın adı da verilib. Bu, 57 yaşlı Mustafa Əl Madanidir. Madaninin Qaşıqçı ilə təxminən eyni yaşda olması, üstəlik, bədən ölçülərinin uyğun gəlməsi onun əvvəldən bu vəzifə üçün gətirildiyini göstərir. Sui-qəsdçilər Qaşıqçının tək gəlmədiyini, daha doğrusu, nişanlısı Xədicə Cengizin konsulluğun xaricində gözlədiyini bildikləri üçün Madanini binanın arxa qapısından çıxarıblar.

**Politoloq Əhəd Məmmədli "Yeni Müsavat"a məsələ ilə bağlı danışarkən dedi ki, qətllə bağlı versiyalar çoxdur:** "Artıq rəsmi versiya da var. Səudiyyə Ərəbistanının güc strukturları, kəşfiyyat orqanları yüksək səviyyədə peşəkarlıqları ilə heç vaxt seçilməyiblər. Yəni ehtiyatsızlıqdan öldürə bilərlər. Yaxud həmin o heyətin içində kimsə və ya kimlərsə bilərəkdən öldürə bilərlər. Məntiqlə Səudiyyə Ərəbistanı üsyankar jurnalisti öldürmək istəsə, öz konsulluğunda öldürmək ən axırıncı və ağılsız variantdır. Fakt odur ki, bu qətlin yeganə zərərçəkəni mərhum Qaşıqçıdan sonra, vəliəhd şahzadə Məhəmməd bin Salmanın timsalında Səudiyyə Ərəbistanı oldu. Proseslər daha dərin və fəsadlı istiqamətlərə doğru gedə bilər. Bin Salman Amerika ilə anlaşsa, proses sənginməyə doğru gedəcək. Əksi baş versə, proses saraydaxili çevrilişə qədər gedə bilər. Rəsmi açıqlama verilib. Bu açıqlamaya qarşı ABŞ və ya Türkiyə fərqli açıqlama versə, bu xəmir hələ çox su aparacaq. Düzdür, hələlik bu görünmür. Türkiyənin mövqeyini gözləyək. Bin Salman eyni vaxtda həm ABŞ, həm də Türkiyə ilə anlaşsa, proses dayanacaq, daha doğrusu, dayandırılacaq. Üçüncü variant da ola bilər. Bu da bin Salmanın təkcə Ərdoğanla anlaşmasıdır. Belə olan halda regionda maraqlı və eyni dərəcədə riskli hadisələr izləyə bilərik. Hələ lap əvvəldən Türkiyə KİV-ində bu qətli "Mossad"ın etdiyi söylənilmişdi. Qaşıqçının İran-İsrail arasında gizli razılığa gəldiyindən xəbəri olduğu və bunu "Washington Post"a yayımlayacağı barədə versiya irəli sürülmüşdü. Fikir verin, bu qətl bin Salmanın "Amerikaya xərac ödəyən deyilik" açıqlamasından sonra baş verdi. Bu qətl Amerikanın Səudiyyə Ərəbistanına bir mesajı da ola bilər. Bu, çox acınacaqlı hadisədir. Əksər ölkələrin reaksiyaları daha çox protokol qaydasındadır. Zatən əksər ölkələrin bu prosesə müdaxilə etmək imkanı da yoxdur. Bu prosesə müdaxilə etmək imkanı olan ölkələr çox azdır, lakin onların müdaxiləsi kifayətdir ki, vəziyyət ya səngisin, ya da qarışsın. Səudiyyə Ərəbistanını nələr gözləyini əsas bu dövlətin ABŞ-la münasibətləri bəlli edəcək. Səudiyyə müstəqil siyasət yürütmək riskini göz altına alsa, bu ölkəyə qarşı hakimiyyət çevrilişi, terror hadisələri, dini və etnik zəmində münaqişələr təşkil oluna bilər. Lakin bu riski qarşısına alıb dəfn də edilə bilər".

**Politoloq onu da qeyd etdi ki, İslam dünyası üçün ən arzuolunan variant Səudiyyə Ərəbistanının Türkiyəyə doğru yaxınlaşmasıdır:** "Türkiyə-Səudiyyə birliyi ABŞ-ı belə qarşısına ala biləcək gücdədir. Açığı, bu yaxınlaşmanı gözləyirəm. Səudiyyə müstəqil siyasət yeritməyə başlasa, Qərb çalışacaq ki, bu dövləti də qarışdırsın. Lakin Səudiyyə Ərəbistanı Türkiyəyə tərəf getsə, qardaş ölkəyə güvənsə, bu, Qərb və onun regiondakı əlaltılarına ciddi zərbə olacaq. Məhəmməd bin Salman buna hazırdır ya yox, bax bunu biz yaxın zamanlarda görəcəyik. Türkiyə güclənməyə davam etsə, Səudiyyə Ərəbistanının Osmanlı keçmişinə yaxınlaşması gec-tez baş verəcək. Mərhum Camal Qaşıqçı bütün tənqidlərinə rəğmən "Müsəlman-Qardaşlar" Təşkilatına yaxınlığı bildirilən, Suriya inqilabının tərəfdarı, Türkiyənin dostu, Türkiyə-Səudiyyə münasibətlərinin yenidən yaxşılaşmasına doğru getməsini istəyən şəxs idi. Onun öldürülməsi regionda Türkiyə və Səudiyyə Ərəbistanından başqa ABŞ, İsrail, İran, Əsəd Suriyası və Rusiyanın əlinə oynadı. Qaşıqçının Səudiyyə Ərəbistanının Türkiyədəki konsulluğunda öldürülməsini təsadüfi saymıram. Bu, bin Salmana incə bir mesaj idi. Bütün hadisələrə rəğmən hər bir şərdə bir xeyir də var, bu qətl türk dünyasının açar ölkəsi Türkiyə ilə ərəb dünyasının açar ölkəsi Səudiyyə Ərəbistanı arasında yenidən yaxınlaşmanın olmasına səbəb ola bilər. Bunun üçün bin Salman nəhayət ki, cəsarətli addımlar atmalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**




## Şirvanşahlar dövlətinə aid nadir eksponatlar Azərbaycana gətirilib

**Şirvanşahlar dövlətinə aid olan və dünyanın müxtəlif muzeylərində saxlanılan nadir eksponatlar sərgidə nümayiş etdirilmək üçün Azərbaycana gətirilib.**

Bu barədə "Report"a "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən məlumat verilib.

Bildirilib ki, idarə "Şirvanşahlar irsi dünya muzeylərində" adlı sərgi təşkil edəcək. Tədbir "Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət" adlı beynəlxalq elmi konfrans çərçivəsində baş tutacaq.

Sərgi oktyabrın 23-24-də konfrans iştirakçılarının xüsusi ziyarəti, oktyabrın 25-dən isə ictimaiyyət üçün açıq olacaq.

İlk iki gün ərzində sərgidə dünyanın ən böyük muzeylərindən Azərbaycana gətirilən nadir eksponatlar nümayiş olunacaq. İstanbul Əskəri muzeyi tərəfindən təqdim olunan eksponatlar sərginin əsasını təşkil edəcək. Sərgidə Gürcüstan Milli muzeyindən gətirilən Pir Hüseyn xanəgahına məxsus kaşı nümunələri də nümayiş olunacaq.

Yüksək texnoloji metodlara əsaslanaraq texniki yeniliklər sayəsində "canlanan" eksponatlar, onların ehtiva etdiyi dərin məna və Şirvanşahlar sarayının tarixi abı-havasını zənginləşdirəcək qədim musiqi alətlərində ifa olunan musiqilər, eləcə də öz tarixi, ilkin obrazını səsləyən konstruksiyalardan istifadə olunacaq.

"Şirvanşahlar irsi dünya muzeylərində" sərgisi 2019-cu il yanvarın 23-dək İçərişəhərdə, Şirvanşahlar Sarayı Kompleksində hər gün saat 9:00-dan 20.00-dək ziyarətçilər üçün açıq olacaq.

YENİ MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

# Dostları toya hazırlaşan gənci şantaj etdilər

## "Toyqabağı idi, pulumun olduğunu bilirdilər, 15 min istədilər"



**Qonşusunun oğurluq etdiyindən şübhələnən şəxsin başına iş gəlib. Onun özünü öz şübhələri ilə şantaj ediblər. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hədə-qorxu ilə tələb etmədə təqsirləndirilən Emin Mərdanov və Emil Hüseynovun cinayət işi üzrə məhkəmə iclası keçirilib. Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib.**

İttihamda yazılır ki, Emin Mərdanov və Emil Hüseynov Bakıda tanışları Sədyar Salayevi hədələyərək ondan 15 min manat pul tələb ediblər. Belə ki, zərərçəkmiş Sədyar Salayev çalışdığı obyektdən qonşusu Ruslan Bəkirovun pivə oğurladığından şübhələnib. Daha sonra bu barədə tanışları Emin Mərdanov və Emil Hüseynova deyib. Lakin Sədyar bu məsələnin qonşusuna çatmasını istəməyib. Tanışlarından da xahiş edib ki, qonşusuna bu barədə heç nə deməsinlər.

Amma daha sonra Emin və Emil plan quraraq Sədyar Salayevi hədələyərək həmin şübhələrini qonşusuna deyəcəklərini söyləyiblər. Bunun qarşılığında ondan 15 min manat pul tələb ediblər. Məlumata görə, Sədyar Salayev əvvəl onlara 7 min 500 manat pul verib. Həmin şəxslər zərərçəkmişdən növbəti dəfə pul tələb edən zaman o, hüquq-mühafizə orqanlarına müraciət edib. İttihamda göstərilir ki, Sədyar Salayev həmin şəxslərlə növbəti görüşdə polislərin verdiyi 2000 dolları verib. Daha sonra hüquq-mühafizə orqanları əməkdaşları E.Mərdanovla E.Hüseynovu saxlayıb.

Məhkəmənin qərarı ilə onların barəsində Cinayət Məcəlləsinin 182.2.1-ci (hədə-qorxu ilə tələb etmə) və 182.2.4-cü maddələri ilə ittiham irəli sürülüb. Elan olunmuş ittihamla Mərdanov özünü qətiyyən təqsirli bilmədiyini deyib. Hüseynov isə özünü qismən təqsirli bildiyini söyləyib. Məhkəmə prosesində zərərçəkmiş Sədyar Salayev ifadə verib.

**Zərərçəkmiş deyib ki, Emin Mərdanovu 2006-cı ildən tanıyır:** "Onunla birlikdə əsgərlikdə olmuşuq. Dostluğumuz da oradan başlayıb. Onun vasitəsilə də Emil Hüseynovu tanımışam. Mərdanovla iki il idi danışmırdıq. Küsülü olmağımızın səbəbi bir məclisdə Eminin mənə dediyi söz idi. Mən araq içəndə Emin dedi ki, içə bilmirsənsə, içmə. Bu sözü uşaqların arasında deməsi mənə xoş gəlmədi. Bundan sonra danışıb, görüşmədik".

**NZS-də pivə zavodunda işlədiyini deyən Sədyar ondan pul tələb edilməsinə səbəb olan hadisə haqda bunları danışıb:** "Emil Hüseynov həmin zavoda mənim vasitəmlə işə düzəlmişdi. Zavodda da uşaqlar onu mənə görə tanıyırdı. Bir gün zavoddan Ruslan mənə zəng elədi. Ruslan həm qonşum, həm də iş yoldaşım idi. Münasibətimiz yaxşı idi. Ruslan dedi ki, kimsə onlara zəng edib 15 min tələb edir. Eminlə Emil plan qurub zavodda olan nöqsanların üstünü açmamaq üçün Ruslangildən pul tələb ediblər. Əvvəlcə Ruslangil onlara zəng edən şəxsin kim olduğunu bilməyiblər. Amma araşdırandan sonra biliblər ki, zəng edən Emildir. Sonra zavoddan mənə zəng elədilər ki, Emilgil onlardan pul tələb edir.

Bunun üstü açılanda Emil və Emin işi mənim üstümə atmaq istədi. Emil mənə zəng edib dedi ki, əgər 15 min verməsəm, Ruslangilə planı mənim qurduğumu deyəcəklər. Həmin ərəfədə mənim toyum olacaqdı. İstəmirdim ki, problem yaransın. İşlədiyim müəssisədə kollektivlə münasibətimin pozulmasını istəmirdim. Onlar da mənim toyumun olacağını, toyqabağı əlimdə pul olduğunu bilirdilər. Emillə telefonda danışdıq. Mən ona dedim ki, Ruslangilin yanında məni biabır eləmə. Ona dedim ki, adımı çəkmə. Həmin telefon danışığımızın bu sözləri dediyim hissəsini kəsmişdi. Deyirdi ki, bununla Ruslangil hər şeyi biləcək. Mən də dedim ki, həmin pulu sizə verəcəm. Əvvəlcə 7500 verdim. Sonra isə 2000 verəndə polislər onları tutdu".

**Ötən prosesdə təqsirləndirilən şəxslərdən şikayətçi olduğunu deyən zərərçəkmiş artıq onları bağışladığını deyib: "Mən onların ikisini də valideynlərinə görə bağışladım".**

❑ **İlkin MURADOV,**
**Musavat.com**




## "Nar" Tərtərdə 4G şəbəkəsini qurdu

nar
Gəlin birlikdə böyüyək

**Ölkənin ən gənc mobil operatoru olan "Nar" yüksək keyfiyyətli 4G şəbəkəsini bölgələrdə sürətlə artırmağa davam edir. 4G şəbəkəsinin istismara verildiyi növbəti region mərkəzi Tərtər oldu. Bununla da Tərtər sakinləri keyfiyyətli və yüksək sürətli mobil rabitə xidmətləri ilə təmin edilir.**

**Hazırda "Nar" 4G şəbəkəsinin əhatə dairəsini bütün Azərbaycan boyunca sürətlə genişləndirir və ölkədə ən geniş 4G şəbəkələrindən birinə malikdir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 45-dən çox bölgə mərkəzləri "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. "Nar" il ərzində 570-ə yaxın 4G, 140-dan çox 3G texnologiyası ilə təmin olunmuş mobil baza stansiyasını istifadəyə verib. Təkmilləşdirmə işlərinin nəticəsi olaraq hazırda ölkə ərazisində 4G baza stansiyalarının sayı 1500-ü keçib. 3G baza stansiyalarının sayı 2600-ün üzərindədir. İlin sonuna qədər isə mobil operator ümumilikdə 1700-dən çox 4G-LTE texnologiyalı baza stansiyasını istifadəyə verməklə LTE texnologiyasının əhatə dairəsini genişləndirməyi nəzərdə tutub.**

**4G keyfiyyəti ilə yanaşı, "Nar"ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır. "Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3 dəfə artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 250 min nəfərə çatıb.**

**Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.**

## 19 nəfəri aldadan bağça müdiri və müavini hakim qarşısında

**Bağça müdiri və müdirin müavini hakim qarşısına çıxarılıb. Təqsirləndirilənlərdən üçüncüsü isə bağçanın işçisidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tovuz rayon şöbəsində dövlət qulluqçusu işləyib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində Bakının Yasamal rayonu, Əhməd Cəmil küçəsində çoxmərtəbəli binanın birinci mərtəbəsində fəaliyyət göstərən "Safay" uşaq bağçasının müdiri Tərlan Bağırova, müdir müavini Aləmzar Əliyeva və işçisi Azər Əliyevin cinayət işi üzrə məhkəmə iclası başlayıb. Onlardan yalnız Aləmzar Əliyeva həbsdədir. Digər iki şəxs ev dustaqlığındadır.

Hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən məhkəmənin hazırlıq iclasında məlum olub ki, təqsirləndirilənlərdən Azər Əliyev məhkəməyə gəlməyib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər barəsində Cinayət Məcəlləsinin 311.3.1-ci (rüşvət alma, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən) və 178.2.1; 178.2.2-ci (dələduzluq) maddələri ilə ittiham irəli sürülüb.

Məlumata görə, T.Bağırova və müdir müavini A.Əliyeva "Şamaxinka" adlanan ərazidə yeni açılacaq uşaq bağçasına işə qəbul edəcəklərinə dair söz verərək bir qrup şəxsdən pul alıb. T.Bağırova və A.Əliyeva işə düzəldəcəyi qadınlara iki gündən sonra səliqəli geyimdə bağçanın açılışına gəlmələrini deyib. Bir neçə qadın da deyilən vaxtda həmin ünvana gəlib. Lakin məlum olub ki, uşaq bağçası kimi təmir edilən obyektdə şəkillər və reklam lövhələri sökülüb.

Daha sonra zərərçəkmişlər hüquq-mühafizə orqanlarına şikayət edib. Cinayət işində 19 zərərçəkmiş var. Məhkəmə iclasında məlum olub ki, həbs edilən Aləmzar Əliyeva həbs edilmədən əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tovuz rayon şöbəsində işləyib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

Yeni MÜSAVAT
N 224 (7113) 23 oktyabr 2018

# Tramp yarım trilyon dollar itirə bilər

## "Amerikanın casusu qismində fəaliyyət göstərən Səudiyyə vəliəhdinin hakimiyyət önünü açmaq uğrunda ciddi çarpışma gedir"

**"Washington Post" qəzetinin müxbiri Camal Qaşıqçının Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunda başına gələnlər dünyada yeni bir skandala səbəb olub.**

Amerika-Səudiyyə arasındakı silah müqaviləsinin bu məsələyə görə pozula biləcəyinə dair fikirlər durmadan artır. Doğrudur, Amerika prezidenti Donald Tramp bir həftə öncə media mənsublarının suallarını cavablayarkən bu barədə suala cavab verərək, bunun mümkünsüz olduğunu söyləyib. Amma bunun biznes düşüncəsi ilə hərəkət edən Trampın fikirləri olduğunu unutmayaq. Görünən odur ki, proseslər getdikcə gərginləşir və Tramp administrasiyası ən böyük gəlirindən məhrum ola bilər. Məhz Ağ Evin jurnalistin başına gətirilənlərlə bağlı ehtiyatlı davranışı bunu deməyə əsas verir.



**Politoloq Natiq Miri bildirdi ki, Qaşıqçının Səudiyyə Ərəbistanına aparılması və öldürülməsi barədə konkret informasiya ABŞ rəhbərliyində olub:** "Ağ Ev bunun qarşısını almayıbsa, deməli, Amerika bu prosesin içərisində bilavasitə mövcuddur. Səudiyyənin bu gün cəzalandırılması tələbi daha çox Tramp administrasiyasında deyil, Konqres və Senatda səslənməkdədir. Tramp məhz bunun üçün çətin vəziyyətə düşüb. 110 milyard deyilir, amma Səudiyyə şahzadəsinin etirafı onu göstərdi ki, Amerika Səudiyyəyə yarım trilyon dollar çərçivəsində silah satıb. Əslində bu, Tramp hakimiyyətinə Səudiyyə Ərəbistanının verdiyi maliyyə dəstəyidir. Vəziyyətin daha da gərginləşməməsi üçün Tramp dövlət katibini Səudiyyəyə göndərdi. Amerikanın kral ailəsi üçün cızdığı bir yol xəritəsi var. Buna uyğun olaraq bu gün Səudiyyə rəsmiləri hərəkət edirlər. Qaşıqçının öldürülməsinin təsdiq olunmasından sonra hansı xətt cızılıbsa, Səudiyyə buna uyğun davranır. Burada da əsas olan Səudiyyə şahzadəsinin kral elan olunmasıdır. Bilirsiniz ki, bu gün bütün dünya Səudiyyə şahzadəsinin növbəti kral olmasına qarşıdır. Ortada konkret təkliflər var ki, kral yeni vəliəhd müəyyən etsin. Amerikanın casusu qismində fəaliyyət göstərən Səudiyyə vəliəhdinin hakimiyyət önünü açmaq uğrunda ciddi çarpışma gedir. Bu gün Amerikanın Yaxın Şərq və digər ciddi hədəfləri var. Bunun üçün Səudiyyənin vəliəhd şahzadəsinin kral olmasına çox ciddi ehtiyac var. Strateji hədəflər ABŞ üçün bu şəxsin üzərində qurulub. Silah və digər sanksiya məhdudiyyətləri dilə gətirilsə də, Trampın əsas hədəflərindən biri şahzadənin hakimiyyətə gedən yolunun kəsilməməsi məsələsidir. Səudiyyənin nə qədər pul xərcləməsindən asılı olmayaraq, burada əsas məsələ Türkiyədir. Yəni istintaqın nəticəsi olaraq Türkiyə nəyi bəyan edəcəksə, yalnız bundan sonra vəliəhd şahzadəsinin kral olub-olmaması müəyyənləşəcək. Bütün məsələlər prezident Ərdoğanın bir barmaq işarəsindən asılı vəziyyətə gəlib".

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev ABŞ-ın regionda ən yaxın müttəfiqinin Səudiyyə Ərəbistanı olduğunu söylədi:** "Bu müddət ərzində ilk baxışda iki dövlət arasında münasibətlərin pisləşməsinə səbəb ola biləcək bir çox problemlər yaşansa da, son olaraq müttəfiqlik yenə də davam edib. Yəni baş verən hadisəni ABŞ gözardı etməyəcək və bununla bağlı Ər-Riyada təzyiqlərini davam etdirəcək. Amma bu o anlama gəlməməlidir ki, ABŞ Səudiyyə ilə münasibətləri dayandıracaq, sanksiyalar tətbiq edəcək və s. Hesab edirəm ki, həmin cinayətin araşdırılmasında və günahkarların müəyyənləşdirilib cəzalandırılmasında qeyri-rəsmi olaraq ABŞ iştirak edəcək. Səudiyyənin buna etiraz etməsi belə mümkün olmayacaq. Nəticə etibarı ilə ABŞ-a bu dövlətlə münasibətlərin davamlı olması vacibdir. Nəzərə alsaq ki, Səudiyyə monarxiya dövlətidir və çoxsaylı şahzadələr mövcuddur. O zaman ehtiyac yarandığı təqdirdə fərdlərdə rotasiyanın olunmasında elə də problem olmaya bilər. Bir məsəni diqqətdən qaçırmaq lazım deyil ki, ABŞ-ın Səudiyyə Ərəbstanına satacağı silahlar son nəsil müasir silahlardır. Bu cür məsələlərdə ABŞ çox diqqətli davranır. Yəni nə qədər pul ödəməsindən asılı olmayarq ABŞ-ın belə silahları hər dövlətə satmamaqla silah satışında əsas məqsədin silahların satışından əldə elədiyi pul olmadığı, hədəfin daha böyük olduğu anlaşılır. Bu isə həmin silahların düşdüyü əllərə arxayın olmasından və ehtiyatlanmamasından qaynaqlanır. Bu müqaviləni bağlayanda ABŞ-ın arxayınçılığı olub, o, bu gün də davam edir. O ayrı məsələdir ki, Qaşıqçı cinayətinə görə bu işdə əli olanların cəzalandırılmasına nail olmağa çalışacaq, kimlərinsə qulağını çəkəcək. Dediklərim münasibətlərin qeyri-rəsmi tərəfidir. Rəsmi tərəf təbii ki, başqa cür olmalıdır. Yəni silahların Rusiyadan, Çindən alına biləcəyi ehtimalları və s. deyilməlidir. Ona görə də müqavilənin pozulma ehtimallarına o qədər də inanmıram. Amma baş vermiş cinayətin üzərinə bütün vasitələrlə gediləcəyinə inanıram. İlkin olaraq 110 milyardlıq, ümumilikdə 300 milyard silahın satılması isə hesab edirəm ki, ABŞ-ın regionda qüvvələr nisbətini Səudiyyə timsalında istədiyi kimi saxlamaq istəyindən irəli gəlir. Teokratik monarxiya quruluşundan, daxilində elementar demokratik dəyərlərin, insan haqlarının mövcud olmamasından asılı olmayaraq Səudiyyə digər region dövlətlərindən fərqli olaraq daxilində daha sabitdir. Hesab edirəm ki, ABŞ gələcək üçün oranı özünün forpostu kimi gücləndirmək niyyətindədir. Ona görə də satılan silahların əsas təyinatının fərqli olması ehtimalları da böyükdür. Bu isə ABŞ-ın milli təhlükəsizlik siyasətindən irəli gələ bilər. Bütün bunları nəzərə almaqla deyə bilərəm ki, Tramp nə bağladığı silah müqaviləsindən geri çəkiləcək, nə də cinayətin günahkarlarının müəyyənləşdirilib cəzalandırılması tələblərindən".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Rusiya Ukraynaya qarşı sanksiyalar tətbiq edib

**Rusiya Ukraynaya qarşı sanksiyalar tətbiq edib.**

"Report" Kremlin rəsmi saytına istinadən xəbər verir ki, Rusiya prezidenti Vladimir Putin bununla bağlı fərman imzalayıb.



"Xüsusi iqtisadi tədbirlər" adlanan sənəd Rusiya vətəndaşlarına və hüquqi şəxslərə qarşı Ukraynanın qərəzli və beynəlxalq hüquqa zidd olan məhdudlaşdırıcı tədbirlərinə cavab və milli mənafeyi qorumaq məqsədilə imzalanıb.

Qərar məhdudlaşdırıcı addımlar atılacaq hüquqi və fiziki şəxslərin siyahısını və həmin iqtisadi tədbirlərin müəyyənləşdirilməsini nəzərdə tutur.

Qeyd edək ki, 2014-cü ildən Ukrayna hökuməti Rusiyanın siyasətçiləri, iş adamları, rəsmi şəxsləri və media nümayəndələri də daxil olmaqla, 1228 fiziki və 468 hüquqi şəxsinə qarşı məhdudlaşdırıcı tədbirlər tətbiq etmişdi. 2017-ci ildən isə Rusiyanın "Mail.ru Group", "Yandex", "Vkontakte", "Odnoklasniki" kimi tanınmış internet şirkətlərinə və bəzi KİV-ə qarşı da müvafiq tədbirlər tətbiq edilib.

# Avropada 142 nəfəri öldürən "Qərbi Nil" xəstəliyi Azərbaycanda yayıla bilərmi?

**Səhiyyə Nazirliyi Respublika Taun Əleyhinə Stansiya (RTƏS) Avropa ölkələrində yayılan və ölümlə nəticələnə bilən "Qərbi Nil" xəstəliyinin Azərbaycana keçə bilmə ehtimalını dəyərləndirib.**

Stansiyanın (RTƏS) Xüsusi təhlükəli yoluxucu xəstəliklərin epidemiologiyası şöbəsinin müdiri, tibb elmləri namizədi Rita İsmayılova "Trend"ə deyib ki, "Qərbi Nil" qızdırması insanlara əsasən ağcaqanadlar vasitəsilə keçir:

"Xəstəliyin əsas daşıyıcıları quşlardır. Ağcaqanadlar xəstə quşları dişlədikdən sonra insanı dişlədikdə bu xəstəliyi insana keçirə bilirlər. Lakin bütün növ ağcaqanadlar bu xəstəliyi insana keçirə bilmirlər. Kuleks (Culex) növlü ağcaqanadlar bunu xəstəliyə yoluxmuş quşlardan insana keçirə bilərlər. Bu xəstəlik kontakt yolu ilə, yəni insan heyvanlarla, onun qanı ilə təmasda olarsa, ona bu xəstəlik keçə bilər".

R.İsmayılova xəstəliyin yayılılmasına səbəb olan ağcaqanadlara Azərbaycanda az rast gəlindiyini də söyləyib.

O əlavə edib ki, indiyədək Azərbaycanda heç bir insanda "Qərbi Nil" virusu qeydə alınmayıb:

"Xəstəlik bizim ölkə üçün o qədər də səciyyəvi deyil. Lakin heç bir ölkə xəstəliklərdən sığortalanmayıb. Belə hallar baş verərsə, Taun Əleyhinə Stansiyada müayinələr aparıla və xəstəliklər aşkarlana bilər".

R.İsmayılova bildirib ki, bu xəstəlik insanların 80 faizində simptomsuz keçir, yəni insanda heç bir kliniki əlamət müşahidə edilmir. Kliniki əlamətlərin müşahidə edildiyi insanlarda "Qərbi Nil" xəstəliyi yüksək hərarət, başağrısı, yorğunluq, bütün bədəndə ağrı, qusma, ürəkbulanma, eləcə də dəridə səpkilər ola bilər. Bu zaman limfa vəzilərinin şişməsi də müşahidə edilə bilər. Xəstəliyin ağırlaşması meningit və s. kimi daha ağır xəstəliklərin yaranmasına gətirib çıxarır. Bu zaman yüksək qızdırma, şüurun itməsi, komaya düşmə ola bilər. Xəstəliyin inkubasiya dövrü 3 gündən 14 günədəkdir".



Qeyd edək ki, Xəstəliklərə Nəzarət Avropa İdarəsinin statistik məlumatlarına görə, 4 oktyabr 2018-ci il tarixi üçün ümumilkdə 1317 yoluxma halı (İtaliya - 495, Yunanıstan - 283, Rumıniya - 256, Macarıstan - 197, Xorvatiya - 45, Fransa - 16, Avstriya - 15, Bolqarıstan - 6, Sloveniya - 3, Çexiya - 1) qeydə alınıb. Həmin dövrdə bu xəstəliyə yoluxanların 142 nəfəri dünyasını dəyişib.

YENİ MÜSAVAT

Son səhifə

N 224 (7113) 23 oktyabr 2018



# Darıxdığı üçün polisə 45210 dəfə zəng etdi, həbs olundu

İstanbulda Şərif Can adlı vətəndaş il ərzində polisə 45 210 dəfə zəng etdiyi üçün həbs olunub. Bu barədə “Sabah” nəşri xəbər verib. 2017-ci ilin mayından 2018-ci ilin mayına qədər türkiyəli kişi gün ərzində 100 dəfə polisə zəng edib və hər dəfə operatordan onunla danışmasını xahiş edib. Kişi polis işçisinin xidməti vəzifəsini yerinə yetirməyə mane olduğu üçün məhkəməyə çıxarılacaq. İstintaq zamanı 55 yaşlı Can bildirib ki, kiminləsə danışmaq üçün polisə zəng edirmiş: “Mən arvadımla iki il öncə ayrılmışam. Mən daim içir və polisə zəng edirdim. Çünki depressiya və yalnızlıqdan əziyyət çəkirdim”. O, hərəkətini belə izah edib. Kişi öz suçunu etiraf edib, peşmançılığını ifadə edib və bir daha belə hərəkət etməyəcəyinə dair söz verib. Məhkəmə Canı 5 ilə qədər həbs cəzasına məhkum edə bilər.

Fevralda işsiz yaponun 159 dəfə dövlət idarələrinə zəng edib, heç nə dememəsinə görə həbsi barədə xəbər yayılmışdı.

# Bu pəhriz insanları dişsiz qoyur

**Yeni dəbə minən pəhriz növləri dişləri xarab edir, ağızdan pis iy gəlir. Bu gün dünyada meyvə şirəsi və ya çiy qida ilə pəhrizlər daha çox yayılıb. Orqanizmə bu cür məhdudiyyətlər insan üçün təhlükəlidir. Bu cür pəhriz növləri Hollivudda daha çox populyardır. Selma Hayek və Keyt Hadson kimi məşhurlar bu cür pəhrizlərdən istifadə edirlər.**



London stomatologiya klinikasının direktoru, doktor Patel bildirir ki, bu cür pəhrizlər dişlərə qarşısıalınmaz ziyan vurur. Yalnız meyvə şirələrindən ibarət olan rasion orqanizmdə insulinin miqdarını pik həddinə çatdıra bilər. Bu da zamanla kollagenlərin strukturunu dəyişir. Məhz kollagenlərin strukturu damaq sağlamlığı üçün cavabdehdir. Alimlər bu cür pəhriz növləri ilə orqanizmi sınaqdan keçirməyi tövsiyə etmirlər. Konservləşdirilmiş meyvə şirələrindənsə təzə meyvələr yeməyi tövsiyə edirlər.

# Qadın qab yuyanda ömrü uzanır

**Amerikanın səhiyyə araşdırmaçıları qab yumağın insanın uzun həyat yaşamasına müsbət istiqamətdə təsir etdiyini açıqlayıblar. Amerikalı mütəxəssislərin apardığı araşdırma “Journal of the American Geriatrics Society” jurnalında yayımlanıb. Araşdırma çərçivəsində yaşı 65-dən yuxarı olan 6 min qadının bir həftə boyunca evdəki fiziki aktivliyi təqib edilib.**

Buna görə gün ərzində ən az yarım saatını bir ev işinə ayıran insanların ölüm faizinin yüzdə 12 daha az olduğu ortaya çıxıb. Fiziki aktivliyin müddəti 1 saat olanda isə ölüm faizinin 39 faiz azaldığı ortaya çıxıb. Araşdırmada yer alan heyətdən Andrea Lacroix bildirib ki, fiziki aktiv hərəkətlər qadınlarda ölüm riskini azaldır. Yəni bu vaxta qədər yaşlı qadın qohumlarımıza boş yerə yüklənib, onları işdən-gücdən çəkindirdiyimiz ortaya çıxıb. Belə ki, bu qədər fiziki iş onların ömrünü uzadırmış.





# Parkda yatan sərxoş kişinin başına bu işi açdılar

İngiltərədə qatıldığı bir partidə çox sərxoş olan adam səhər oyananda gördüyü mənzərə qarşısında çox təəccüblənib. Adının açıqlanmasını istəməyən adam oyanıb, tualetə gedəndə gözünün ətrafında bir eynək şəkli çəkildiyini görüb. Kənarına da məşhur eynək markası olan “Ray Ban” yazılmışdı. Bunun dostları tərəfindən qələmlə çəkildiyini düşünən adam əvvəl çox da hirslənməyib. Amma nə qədər yusa da, şəkillərin yerində dayandığını görüncə bunun həqiqi bir tatuaj olduğunun fərqinə varıb. O anda dünyasının başına fırlandığını deyən qallerli adam tatuajın edildiyi anı əsla xatırlamadığını deyir. Tatuajı sildirmək üçün böyük əziyyət çəkən kişi 2 il boyunca bu izlərdən qurtulmağa çalışıb. Öncə tatuaj sildirdiyi halda izlər qalacağı üçün tərəddüd yaşasa da, bu şəkildə yaşaya bilməyəcəyini fərq etdiyi üçün sildirməyə qərar verib.




**QOÇ** - Gün ərzində mənfi yüklü Ay bürcünüzdə qərar tutduğundan daxili gərginliyiniz arta bilər. Lakin özünüzdə təpər tapıb mübahisələrdən yayınmalı, yalnız adi işlərin həlli ilə məşğul olmalısınız.

**BUĞA** - Bəlkə də bu ayın ən uğurlu gününü yaşayacaqsınız. Ətrafınızda cərəyan edən bütün proseslər zövqünüzə uyğun olacaq. Hətta ağlınıza gətirmədiyiniz istiqamətdən təkliflər də ala bilərsiniz.

**ƏKİZLƏR** - Bu gün təmasda olduğunuz insanların qayğısına qalmağa çalışın. Onların problemlərinin öhdəsindən gələ bilərsinizsə, tələsin. Qoy bu addımınız Tanrı yanında savablarınızı artırsın.

**XƏRÇƏNG** - Təxminən saat 16-ya qədər ümumi işlərinizdə gərginlik hökm sürəcək. Kənar təsirlərdən maksimum yayınmağa çalışın. Əks təqdirdə, nəzərdə tutduğunuz ədalətli işlər pozulacaq.

**ŞİR** - Müxtəlif yeniliklərlə zəngin olan bu gözəl təqvim sizə sevinc gətirəcək. Hansısa xoşagəlməzlik və ya konflikt barədə isə düşünməyə dəyməz. Qərarlarınızda qəti olun. Riskdən qorxmayın.

**QIZ** - Qarşılıqlı anlaşma üçün olduqca əhəmiyyətli vaxtdır. İşgüzar sövdələşmələr aparmaq, müqavilələr bağlamaq istəyirsinizsə, boş dayanmayın. Yarımçıq işlərinizi yoluna qoyun.

**TƏRƏZİ** - Astroloji göstəricilər ixtiyarınızda olan bu təqvimi rahat tərzdə başa vuracağınızdan xəbər verir. Şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür. Axşama yaxın qonaq getməyə dəyər.

**ƏQRƏB** - Pul məsələlərində kifayət qədər ehtiyatlı olun. Çünki göstərilən sahədə dələduzlarla rastlaşma ehtimalınız var. Kiməsə borc vermək və ya almaq fikrindən uzaq olun. Səfərə çıxmayın.

**OXATAN** - Bəxtinizdə həddindən ziyadə uğurlu təqvim durur. Ötən ongünlükdə icra edə bilmədiyiniz işlərinizi məhz bu gündən başlayaraq yoluna qoya bilərsiniz. Böyük dəstək alacağınız da mümkündür.

**OĞLAQ** - Ulduzların düzümü sevindirici xəbərlər eşidəcəyinizi bəyan edir. Ola bilsin ki, uzaqda yaşayan doğmalarınızla bağlı hansısa könülaçan hadisə baş versin. Odur ki, əlaqə saxlayın.

**SUTÖKƏN** - Fəaliyyət zəminində müsbət dönüşlərə hazır olun. Həmkar və rəhbərlərinizlə münasibətləri mülayimləşdirin. Nahar ərəfəsində hansısa sürprizin şahidi olacağınız da gözlənilir.

**BALIQLAR** - Qarşınızda duran gün daha çox şəxsi büdcənizin tənzimlənməsində əhəmiyyətli rol oynayacaq. Odur ki, ayın sonuna qədər maddi durumunuzu qənaətbəxş edəcək bu prosesə indidən başlamalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Buğaları öldürmə dərsi



Fransanın Languedoc-Roussillion bölgəsindəki “French Tauromachy Center” adlı məktəbdə uşaqlara buğalarla döyüşməyin sirləri öyrədilir. 1982-ci ildə yaranan məktəbdə 1000 uşaq “təhsil alır”. Uşaqlara buğaları əsəbiləşdirməyin yolları öyrədilir. Qılınc zərbələri ilə buğa öldürməyi öyrənən uşaqlar samandan hazırlanmış buğaların üzərində məşq edirlər. Buğa öldürmək üzrə təhsil alan 10 yaşlı Nino adlı uşaq həftədə iki dəfə buğa öldürməyi öyrənir. Dostları onu bacarığına görə Əl Nino adlandırırlar. Məktəb hər il 20 matador yetişdirir. Məzun olan uşaqlar buğa döyüşlərinə çıxaraq məharətlərini göstərirlər. Ailələri isə uşaqlarını təhlükəyə atdıqlarını düşünmədən onlarla fəxr etdiklərini deyirlər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100